

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

20 mart 2025-ci il, cümə axşamı
№ 051 (6879)
Qiyməti 60 qəpik

# Süni İntellekt Strategiyası təsdiq edildi



Bax səh. 2

# Zəfərimizin 5-ci ili













Bax səh. 2

# Azad Qarabağda 5-ci bayram tonqalı

## Böyük Qayıdışın yeni səhifəsi

Qarabağ iqtisadi rayonuna daxil olan, zəngin resursları və iqlimi ilə seçilən Ağdərə Ermənistanın işğalından azad edildikdən sonra böyük quruculuq meydanına çevrilib. Bu ərazidə dövlətimizin gücü və davamlı maliyyə dəstəyi ilə nəhəng infrastruktur layihələrinin icrası sürətlə davam etdirilir. Ötən dövr ərzində Ağdərədə yol-nəqliyyat, turizm, su-meliorasiya, kommunikasiya, sosial infrastruktur layihələrinin icrası həyata keçirilib, bir neçə mühüm obyekt istifadəyə verilib.

Martın 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdərəyə səfəri və mühüm obyektlərin açılış mərasimlərində iştirakı Böyük Qayıdışın sürətli icrasını bir daha təsdiqlədi. Ağdərə sakinləri üçün Novruz bayramı günlərində ən böyük töhfə Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsidir. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var. Bu isə köçlə bağlı ümumilikdə 180 ailənin tam şəkildə dayanıqlı mənzil təminatının həlli deməkdir. Dövlət Suqovuşanda yaşayan insanların təhsil, sosial, məşğulluq problemlərini də xüsusi diqqətdə saxlayıb və bu infrastrukturların hər birinin yaradılmasını da gerçəkləşdirib. Belə ki, kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da...

Bax səh. 3

## Ermənistanın əsassız iddiaları...

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətninin razılaşdırılmasından sonra regionda dayanıqlı sabitliyin təmin olunması imkanı yaranıb. Rəsmi İrəvan sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, bunun üçün məlum şərtləri yerinə yetirməyi unutmamalıdır. Amma görünən odur ki, erməni tərəfi yenə də spekulyasiya etməklə məşğuldur. Əgər belə olmasaydı, özünü "sülh göyərçini" təqdim edən Ermənistan sazişi imzalamaq üçün praktiki addımlar atmaq əvəzinə, şərti dövlət sərhədində hərbi təxribatlar törətməzdi.

Artıq bir neçə gündür ki, erməni hərbi birləşmələri müxtəlif istiqamətlərdə ordumuzun mövqelərini atəşə tutur. Qarşı tərəf isə bunu təkzib etməyə çalışır. Belə ki, Ermənistan baş nazirinin aparatı açıqlama yayaraq, guya Müdafiə Nazirliyinin "yoxlama işləri" apardığını və "yoxlamanın nəticələrinə əsasən, Ermənistan ordusu tərəfindən atəşkəs rejiminin pozulması halının baş vermədiyini" iddia edib. Qurum atəşkəs rejiminin pozulması hallarının və ya oxşar məlumatların araşdırılması üçün birgə Ermənistan-Azərbaycan mexanizminin yaradılması təklifini "xatırladıb". Əslində, bütün bunlar erməni tərəfinin manipulyasından başqa bir şey deyil. Rəsmi İrəvan həm atəşkəs, həm konstitusiyada dəyişikliklər, həm də kommunikasiyaların açılması ilə bağlı qeyri-ciddi...

Bax səh. 4

## Türk dövlətlərinin müasir hədəflərindən biri

Milli Məclis "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"ni ratifikasiya edib. Sənəd TDT üzv dövlətləri arasında elektron ticarətin inkişafı, qanunvericiliyin uyğunlaşdırılması, gömrük tənzimləmələri, maliyyə texnologiyaları (FinTech) kimi mühüm istiqamətlərdə əməkdaşlığı nəzərdə tutur. Həmçinin, saziş türk dövlətləri arasında rəqəmsal ticarətdə istehlakçı hüquqlarının müdafiəsi və kibertəhlükəsizlik sahələrində imkanların birləşdirilməsi kimi prioritetləri əks etdirir.

Qeyd edək ki, rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq türk ölkələrinin müasir hədəflərindən biridir. 2024-cü ilin iyul ayında Şuşada imzalanmış Qarabağ Bəyannaməsinin əsas bəndlərindən biri də məhz qardaş ölkələrin elektron və rəqəmsal ticarət sistemlərinin vahid platformada birləşdirilməsidir. Bu məqsədlə türk dövlətləri qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensiala çatdırmaq üçün ticarətdə texniki maneələrin aradan qaldırılması ilə bağlıdır. TDT ölkələri Bəyannamədə Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişinin (DEPA) hazırlanması niyyətini ifadə edib. Həmin sənədin tələblərindən irəli gələrək tərəflər öz səmərələşdirici təklifləri əsasında DEPA sazişinin yekun layihəsini hazırlayıb. 2024-cü ilin noyabrında Bişkekdə keçirilən...

Bax səh. 5

## ABŞ geri çəkilir

ABŞ Prezidenti Donald Tramp hələ seçki kampaniyası zamanı NATO müttəfiqlərindən narazılıq ifadə etmişdi. Trampın fikrincə, Avropa ölkələri müdafiə xərclərinə kifayət qədər vəsait ayırmır, əsas yük Birləşmiş Ştatların üzərindədir. O, prezident seçiləcəyi təqdirdə ABŞ-ın NATO-nu tərk edəcəyi ilə hədələmişdi. Seçkidə qələbə qazanan və bu ilin yanvarından dövlət başçısı kimi fəaliyyətə başlayan Tramp NATO üzvü olan Avropa ölkələrindən üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyi tələb edir. Görünən odur ki, Vaşinqton alyansın digər üzvlərinin əvəzinə çox pul xərcləmək, onların təhlükəsizliyini öz üzərinə götürmək istəmir.

Bu mövzu ilə bağlı "NBC News" telekanalı Pentaqondakı mənbələrə istinadən maraqlı məlumat yayıb. Məlumata əsasən, Donald Trampın administrasiyası 1951-ci ildən bəri yalnız amerikalı generalların tutduğu NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı vəzifəsindən imtina etmək imkanını müzakirə edir. Bildirilib ki, təşəbbüs, xərclərin azaldılmasına yönəlmiş ABŞ-ın döyüş komandanlıqlarının genişmiqyaslı yenidən təşkilinin bir hissəsidir. Telekanal qeyd edib ki, əgər plan həyata keçərsə, bu, ABŞ-ın alyansda liderlikdən geri çəkilməsi kimi qəbul ediləcək simvolik bir addım olacaq.

"NBC News"un mənbələri onu da deyib ki, yenidən təşkil müəyyən vaxt ala bilər və büdcə üzərində nəzarət vasitəsilə təşəbbüsü bloklamaq iqtidarında olan Konqreslə...

Bax səh. 7

# Şər üçbucağı...





Bax səh. 5



# Sahibə Qafarovaya “Şərəf” ordeni təqdim olunub

Prezident İlham Əliyev martın 19-da Sahibə Qafarovanı qəbul edib və ona “Şərəf” ordenini təqdim edib. AZƏRTAC xəbər verir ki, Sahibə Qafarovanı salamlayan Prezident İlham Əliyev onu yubileyi münasibətilə təbrik edib: “Sizə yeni uğurlar, cansağlığı arzulayıram. Siz uzun illərdir Azərbaycanın ictimai-siyasi həyatında fəal rol oynayırsınız. Milli Məclisin deputatı kimi 15 il və Milli Məclisin sədri kimi 5 ildir uğurlu fəaliyyət göstərirsiniz. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm, həm seçicilərlə daim təmasda olursunuz, eyni zamanda, ölkəmizin milli maraqlarını beynəlxalq arenada müdafiə edirsiniz və öz işinizlə ölkəmizin ümumi inkişafına dəyərli töhfə verirsiniz. Bu yubiley günündə mənim sərəncamımla siz “Şərəf” ordeni ilə təltif olunmusunuz. İcazə verin, bu ordeni sizə təqdim edim”.

Prezident İlham Əliyev “Şərəf” ordenini Sahibə Qafarovaya təqdim edib. Sahibə Qafarova təşəkkür edib və bu yüksək təltifə görə dərin, səmimi minnətdarlığını bildirib: “Mən bu yüksək təltifi Azərbaycan Respublikası Milli Məclisinin işinin qiymətləndirilməsi kimi dəyərləndirirəm. Əmin etmək istəyirəm, möhtərəm cənab Prezident, həm Milli Məclisin bir üzvü kimi, həm Milli Məclisin sədri kimi, ümumiyyətlə, Milli Məclis adından demək istərdim ki, bizim hər birimiz Sizin apardığınız siyasətə həmişə parlament səviyyəsində dəstək olacağıq. Xalqın təmsilçiləri olaraq bütün Milli Məclis xalqın rifahı üçün parlament səviyyəsində əlindən gələni edəcək. Mənim haqqımda dediyiniz sözlərə görə Sizə çox minnətdaram. Mən ömür boyu işləmişəm ki, cəmiyyətimizə həmişə hansısa bir xeyir gəlsin. Mən əminliklə demək istəyirəm ki, bundan sonra da işlədiyim zaman Milli Məclisin sədri kimi, bir insan kimi, Azərbaycan vətəndaşı kimi həmişə əlimdən gələni edəcəyəm ki, işlədiyim yerdə öz vəzifəmi yerinə yetirim. Mən Sizə çox minnətdaram”.

# “2025-2028-ci illər üçün süni intellekt Strategiyası” təsdiq edildi



Prezident İlham Əliyev “Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası”nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncam Konstitusiyanın 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında süni intellektin inkişafını sürətləndirmək, bu sahədə tədqiqatların aparılmasını təşviq etmək, süni intellekt üzrə informasiya texnologiyalarının və onların idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsini, infrastrukturunun əlçatanlığını təmin etmək, habelə ixtisaslı kadr potensialını gücləndirmək məqsədi daşıyır.

Bununla bağlı Nazirlər Kabinetinə bu sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Strategiyada nəzərdə tutulmuş tədbirləri əlaqələndirilməsi və icrasına nəzarətin həyata keçirilməsi, strategiyada nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi, bu sərəncamdan irəli gələn digər məsələlərin həll edilməsi tapşırılıb. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinə dövlət orqanlarında (qurumlarında) süni intellektin tətbiq edildiyi sahələrdə informasiya təhlükəsizliyi risklərinin təhlilini həyata keçirmək, o cümlədən dövlət orqanlarında (qurumlarında) süni intellektlə bağlı informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri tədbirlər görmək tapşırılıb. Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən həyata keçiriləcək.

# Zəfərimizin 5-ci ili

## Azad Qarabağda 5-ci bayram tonqalı
















Yurdumuzda bayram bayrama qarışıb. Ölkəmizdə müqəddəs Ramazan ayında həm də xalqımızın tarix boyunca yaşatdığı və zənginləşdirdiyi Novruz bayramı dövlət səviyyəsində qeyd edilir. Prezident İlham Əliyev bayram ərəfəsində şanlı Zəfərimizlə sonuclanan 44 günlük müharibədən sonra öz ənənəsinə sadiq qalaraq birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad olunmuş ərazilərə səfər edib. Səfər çərçivəsində dövlətimizin başçısının və birinci xanım Mehriban Əliyevanın martın 18-də Ağdərə rayonunun Həsənriz kəndində buraya köçən sakinlərlə birlikdə Novruz tonqalını alovlandırmaları xalqımızın bayram sevincinə sevinc qatıb.

Eyni zamanda, Birinci vitse-prezident Mehriban Əliyeva sosial şəbəkə hesablarında Ağdərədən paylaşım edib. Paylaşımda vurğulanır: “Ağdərə rayonu, Həsənriz kəndi. 18.03.2025. Uca Allah hər kəsə möhkəm cansağlığı, bol sevinc, sevgi və səadət, hər evə xoş ovqat, hər ocağa ruzi-bərəkət bəxş etsin! İlaxır çərşənbəniz mübarək!”.

**Şuşada, Suqovuşanda, Talışda, Xankəndidə, Həsənrizdə alovlandırılan tonqallar...**

Əziz bayram günlərində gözəl Novruz ənənələrinə yurdumuzun hər yerində, hər ailədə əməl olunur. Bu ənənələr sırasında torpağa bağlılıq və oda sitayiş xüsusi yer tutur. Torpaq çərşənbəsi - Novruz bayramının dördüncü və sonuncu çərşənbəsi olaraq, xalq arasında “İlaxır çərşənbə” kimi də tanınır. Bu çərşənbə torpağın oyanması, təbiətin canlanması və baharın gəlişinin simvoludur. Eyni zamanda, çərşənbələrdə və bayram axşamında tonqalların alovlandırılması, insanların köhnə ilin dərd-sərini, bütün ağırlıqlarını-uğurluqlarını odda-alovda yandırmaları, yeni, saf bir başlanğıc etdiklərinə inam bəsləmələri son dərəcə gözəl adətdir.

Biz otuz il ərzində təcavüzkar dövlət olan Ermənistanın işğalı səbəbindən Azərbaycanın ərazisinin 20 faizini təşkil edən regionlarımızda bayram tonqalları alovlandıra bilmirdik. Xalqımızın qəlbində mənfur düşmənin nəzarətində qalan torpaqlarımıza sonsuz bağlılıq var idi. Xəyallarımız, ruhumuz hər an bizləri o yerlərə çəkib aparırdı. Otuz il ərzində xalqımıza, dövlətimizə, Prezidentimizə müxtəlif dairələrdən böyük təzyiqlər göstərildi. Bizi işğalla, torpaqlarımızın yad əllərdə olması faktı ilə barışmağa sövq etməyə çalışırdılar. Barışmadıq, dövlət və xalq olaraq təzyiqlərə baş əymədik, yurd yerlərimizə qayıdacağımıza inandıq. Prezident İlham Əliyevin işğal faktına gec-tez, istənilən yolla son qoyulacağına əminlik ifadə etməsi bu inamı möhkəmləndirirdi.

Müqəddəs arzumuza 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində əldə olunan qələbələr sayəsində çatdıq. İndi Azərbaycanın bütün torpaqları azaddır, bütün ərazilərimizdə aylı-ulduzlu bayrağımız əzəmətlə dalğalanır.

Eyni zamanda, artıq bayram tonqalları da ölkəmizin bütün reagionlarında alovlandırılır. İkinci Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərimizdə ilk Novruz tonqalını Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva 2021-ci il 20 mart tarixində Şuşada Cıdır düzündə alovlandırıblar. İşğaldan azad olunmuş ərazilərdə ilk Novruz tonqalının Şuşada alovlandırılması böyük rəmzi məna daşıyırdı. Azərbaycan xalqının bu qədim şəhərə böyük mənəvi bağlılığı var. Uca dağlar qoynunda qərar tutan Şuşa tarixi Azərbaycan şəhəridir, onun əsası Pənahəli xan tərəfindən qoyulub. 28 il əsarətdə qalan şəhər mənfur düşmən tərəfindən dağıntılara məruz qalıb. Düşmən Şuşanın tarixi siması pozmağa, şəhərin simasından azərbaycanlı izlərini silməyə, onu erməniləşdirməyə çalışıb. Ancaq bu mümkün olmayıb. Şuşa dağıntılara məruz qalsa da, milli ruhunu qoruyub. Prezident İlham Əliyev Şuşada bayram tonqalını alovlandırdıqdan sonra xalqa ünvanladığı müraciətində şəhərin işğaldan azad edilməsini tarixi hadisə kimi dəyərləndirərək vurğulayıb: “Biz bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd edirik. Bu, tarixi hadisədir. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir”.

Şuşadan sonra işğaldan azad edilmiş ərazilərdə Novruz tonqalları 2022-ci ildə Suqovuşanda, 2023-cü ildə Talışda, 2024-cü ildə isə Xankəndidə alovlandırılıb. Xankəndi işğal illərində separatizm yuvasına çevrilmişdi. Azərbaycan əleyhinə bəyanatlar buradan verilir, məkrli müharibə cinayətlərinin planları burada hazırlanırdı. Separatçılar 44 günlük müharibənin dərslərindən lazımi nəticələr çıxartmadılar və Xankəndidə çirkin fəaliyyətlərini davam etdirdilər. Buna görə də Azərbaycan 2023-cü il sentyabrın 19-20-də lokal xarakterli antiterror tədbirləri keçirərək Qarabağda separatizmin kökünü birdəfəlik kəsdi. Xankəndidə və işğaldan azad olunmuş bütün ərazilərimizdə bayrağımız ədədi dalğalanacaq. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 2025-ci ilin Novruz tonqalını yeni ünvanda - Ağdərənin Həsənriz kəndində alovlandırdılar. Bu, postmüharibə mərhələsində işğaldan azad olunmuş ərazilərimizdə alovlandırlan sayca beşinci tonqaldır. Bütün torpaqlarında bayram tonqalların əbədi yansın, Azərbaycan!

**Ədalətin təntənəsi, tam qələbə**

Hazırda dünyanın mənzərəsi bir çox cəhətdən təzadlıdır. Ədalət, beynəlxalq hüquq bir sıra hallarda arxa plana keçirilir, ikili standartlar, selektiv yanaşmalar önə çəkilir. Belə bir şəraitdə xalqlar, ölkələr öz həqiqətlərini təsdiqləmək, milli maraqlarını qorumaq üçün güclü olmalıdırlar. Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində Suqovuşanda kənd sakinləri ilə görüşdə diqqəti dünyada gedən proseslərə çəkib. Sirr deyil ki, indi beynəlxalq miqyasda müharibələr, qanlı toqquşmalar kifayət qədər geniş vüsət alıb. Müşahidə edilən reallıq ondan ibarətdir ki, heç də hər bir ölkə ədalətli maraqlarını özü təmin edə bilmir. Xalqlar vətənlərinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxırlar, vuruşurlar, şəhidlər verirlər. Bununla belə, haqları çatan nəticəni əldə edə bilmirlər, uğurları yarımçıq, cüzi olur. Azərbaycan isə 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror tədbirlərində qazandığı qələbələrlə dünyaya yeni bir nümunə təqdim etdi. Bəhs olunan görüşdə Azərbaycanın uğurunu tam qələbə kimi səciyyələndirən Prezident İlham Əliyev “Yəni, sadəcə olaraq, bu gün dünyada gedən toqquşmalara, münaqişələrə, müharibələrə nəzər salsaq, son tarixin müharibələrinə nəzər salsaq, hətta deyə bilərəm ki, İkinci Dünya müharibəsindən sonra Azərbaycan qədər birmənalı və tam qələbə heç kim tərəfindən qazanılmayıb. Ya yarımçıq qalıb, ya natamam qalıb, ya da ki, hər hansı bir başqa formada müharibə öz mahiyyətini dəyişməyərək modifikasiya olunub, başqa formalara keçib. Bizim Qələbəmiz isə tamdır və bu, həm dövlətimizin, Silahlı Qüvvələrimizin gücünü, həm də xalqımızın iradəsini göstərir”, - deyə vurğulayıb.

Əlbəttə, ölkəmiz tam qələbəyə, necə deyərlər, sehirli çubuğun sayəsində nail olmayıb. Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi əsasında alınan qərarlar və görülən işlər bizi addım-addım qələbəyə yaxınlaşdırıb. Bildirildiyi kimi, güclü dövlət qurulmalı idi. Buna nail olundu. Azərbaycan dünyada milli maraqlardan, suverenlik və müstəqillik prinsiplərindən çıxış edən azsaylı dövlətlərdən biri kimi tanınır. Paralel şəkildə, aparılan islahatlar sayəsində iqtisadiyyat gücləndirildi, maliyyə imkanları genişləndirildi. Bu əsasda müasir ordu quruldu. Və əlbəttə ki, ideoloji işin, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin diqqət mərkəzində saxlanılmasının önəmini ayrıca qeyd etmək lazımdır. Respublikamızda vətənpərvərlik ruhunda, dövlətə, xalqa bağlı olan gənclər yetişdirildi. Prezident İlham
Əliyevin vurğuladığı kimi, onlar 30 ildən sonra öz tarixi missiyalarını şərəflə yerinə yetirdilər və həm İkinci Qarabağ müharibəsi dövründə, həm də antiterror əməliyyatı dövründə böyük qəhrəmanlıq göstərmişlər.

Azərbaycanı güclü və yenilməz edən həm də ölkəmizin ədalət müharibəsi aparması idi. Məhz nəyi necə və nə zaman etməyi hamıdan yaxşı bilən Lider amilinin, alınan düzgün qərarların, vaxtında atılan addımların, ardıcıl hazırlıqların nəticəsi olaraq biz öz gücümüzlə tarixi ədalətin və beynəlxalq hüququn təmin edilməsinə nail olduq. Heç bir qüvvə, heç bir güc mərkəzi ədalətli mübarizəmizi məntiqi sonluğa çatdırmaqda bizə mane ola bilmədi.

**Milli-mənəvi varisliyin bariz nümunəsi**

Ənənəvi olaraq Prezident İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayır. Dövlətimizin başçısı budəfəki təbrikində xalqı Novruz bayramı münasibətilə ürəkdən təbrik edib, hər kəsə bahar əhval-ruhiyyəsi, cansağlığı və uğurlar arzulayıb. Müraciətdə qeyd olunduğu kimi, ulu əcdadlarımızın müqəddəs yadigarı olan Novruz bayramı müdrik Azərbaycan xalqının zəngin həyat fəlsəfəsini və nikbin dünyagörüşünü günümüzədək yaşadaraq milli-mənəvi varisliyin bariz nümunəsinə çevrilmişdir. Bu böyük el bayramı təbiətə məhəbbətin, ruhi paklıq və gözəlliyin, mərhəmət və xeyirxahlığın yüksək təntənəsidir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı olduğu üçün o, dünya mədəni irsinin qiymətli nümunələri sırasında layiqli yer tutur. Təbrikdə oxuyuruq: “Novruz bayramı milli təfəkkürümüzün ayrılmaz parçası kimi ənənəvi dəyərlərimizin formalaşmasında müstəsna rol oynamışdır. Ölkəmizi sivilizasiyaların qovuşuğundakı qədim mərkəzlərdən biri olaraq tanıtmış misilsiz mənəviyyat xəzinəmizdə Novruz mərasimləri xüsusi mövqeyə malikdir. Baharın gəlişinin əsrlərin yaddaşında iz qoymuş adətlərə uyğun şəkildə bu gün də rəngarəng el şənlikləri ilə Vətənimizin hər bir guşəsində geniş qeyd edilməsi tarixi-mədəni irsə bağlılığımızın parlaq ifadəsidir”.

Milli həmrəylik Azərbaycan cəmiyyətinin üstün keyfiyyətlərindən biridir. Ən çətin, həlledici məqamlarda Azərbaycan xalqı bir yumruq kimi birləşir. Dünya 44 günlük Vətən müharibəsi günlərində Azərbaycan cəmiyyətinin monolitliyinin bir daha şahidi oldu. Həmin günlərdə milli-dini-etnik mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq ölkənin bütün vətəndaşları, siyasi partiyalar Prezidentin, Ali Baş Komandanın ətrafında sıx birləşdilər. Əsas ümummilli ideya ətrafında sarsılmaz birliyimiz bizi böyük Qələbəyə apardı. Xalqın güclü həmrəyliyinin təmin olunmasına bir sıra amillər öz təsirini göstərir ki, burada milli-mənəvi dəyərlərimizin də böyük rolu var. Novruzun birləşdirici bir bayram olduğuna diqqət çəkən Prezident İlham Əliyev vurğulayıb: “Cəmiyyətdə ünsiyyəti, qarşılıqlı səmimi münasibətləri dərinləşdirən və bizi azərbaycançılıq məfkurəsi işığında sıx birləşdirən Novruz bayramı milli həmrəyliyimizi getdikcə daha da möhkəmləndirir. Əminəm ki, bu həmrəylik duyğusu yaz fəslinin yeniləşdirici ab-havası və beşinci ildönümünə hazırlaşdığımız şanlı Zəfərin verdiyi mənəvi güclə vəhdətdə ümumxalq əhəmiyyətli bütün işlərimizin lazımi səviyyədə icrasını təmin edəcəkdir. Bayram sevincini işğaldan azad olunmuş əzəli torpaqlarımızda yaşayan soydaşlarımız əbədi qayıtdıqları öz dədə-baba yurdlarında aydın səma altında əmin-amanlıq içində daim şövqlə qurub-yaradacaqlar”.

*Mübariz ABDULLAYEV*

# Böyük Qayıdışın yeni səhifəsi

Qarabağ iqtisadi rayonuna daxil olan, zəngin resursları və iqlimi ilə seçilən Ağdərə Ermənistanın işğalından azad edildikdən sonra böyük quruculuq meydanına çevrilib. Bu ərazidə dövlətimizin gücü və davamlı maliyyə dəstəyi ilə nəhəng infrastruktur layihələrinin icrası sürətlə davam etdirilir. Ötən dövr ərzində Ağdərədə yol-nəqliyyat, turizm, su-meliorasiya, kommunikasiya, sosial infrastruktur layihələrinin icrası həyata keçirilib, bir neçə mühüm obyekt istifadəyə verilib.

Martın 18-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ağdərəyə səfəri və mühüm obyektlərin açılış mərasimlərində iştirakı Böyük Qayıdışın sürətli icrasını bir daha təsdiqlədi. Ağdərə sakinləri üçün Novruz bayramı günlərində ən böyük töhfə Suqovuşan kəndində inşa olunan yaşayış kompleksinin istifadəyə verilməsidir. 2,3 hektar sahədə yaradılan kompleks 5 mərtəbəli olmaqla 5 yaşayış binasından ibarətdir. Bu binalarda ümumilikdə bir, iki, üç və dördotaqlı 190 mənzil var. Bu isə köçlə bağlı ümumilikdə 180 ailənin tam şəkildə dayanıqlı mənzil təminatının həlli deməkdir.

## Ağdərə inkişaf edir, iqtisadiyyata inteqrasiya olunur

### Suqovuşanda “yaşıl enerji”...




Dövlət Suqovuşanda yaşayan insanların təhsil, sosial, məşğulluq problemlərini də xüsusi diqqətdə saxlayıb və bu infrastrukturların hər birinin yaradılmasını da gerçəkləşdirib. Belə ki, kənddə yararsız vəziyyətdə olan 144 şagird yerlik tam orta məktəbin binasında da əsaslı təmir işləri aparılıb. Bu isə kəndə keyfiyyətli təhsilin aparılması üçün yaxşı fürsətlər deməkdir.

Bundan əlavə, kənddə enerji təminatı üçün də bütün imkanlar yaradılıb. Bərpaolunan enerji potensialı ilə zəngin olan Suqovuşanda ənənəvi enerjiyə deyil, “yaşıl enerji”yə üstünlük verilib və bu ssenariyə uyğun olaraq ümumi gücü 7,8 meqavat olan “Suqovuşan-1” və “Suqovuşan-2” Kiçik Su Elektrik stansiyaları (KSES) inşa edilib. Bu stansiyalar təkcə həmin kəndin deyil, digər ətraf ərazilərin də ekoloji təmin enerji ilə təchizatında xüsusi rol oynayacaq.



Suqovuşanda yaradılan digər geniştutumlu layihələrdən biri ekoturizm və istirahət turizmi sənayesinin yaradılmasıdır. Kəndə yaradılan “istirahət kompleksi layihəsi” 6 hektar olan kompleksi əhatə etməklə 16 kottec və 2 mərtəbəli hotel binasından ibarətdir. Layihənin genişləndirilməsi sayəsində bu ərazi Azərbaycanın ən böyük turizm marşrutlarından birinə çevriləcək.

### Ağdərə turizm mərkəzinə çevrilir

Suqovuşan zəngin iqtisadi potensiala və xammal ehtiyatlarına malik bölgədir, burada balıqçılıq, kənd təsərrüfatı, turizm üçün münbit şərait mövcuddur. Bu ərazidə ölkənin su təminatı üçün zəngin resurslar cəmləşib, Suqovuşan su anbarı Qarabağın və ətraf rayonların kənd təsərrüfatında həyati əhəmiyyət kəsb edən suvarma təchizatının əsas mənbələrindən biridir. Hələ ötən əsrin 70-ci illərində Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilən Suqovuşan su anbarı ölkəmzin suvarmaya olan ehtiyaclarını ödənilməsində mühüm əhəmiyyət kəsb edib.

Bu qəsəbə uzun illər erməni işğalı altında olan zamanı qondarma rejimin rəhbərliyi ilə birlikdə bölgəyə gələn xarici şirkətlərin qanunsuz istismarına məruz qalıb, qeyri-qanuni balıqçılıq təsərrüfatları, turizm obyektləri yaradılıb və əldə edilən gəlirlər xaricə daşınıb, bir hissəsi isə erməni separatçılarına xərclənib. 2020-ci ildə düşməndən azad edildikdən sonra qəsəbənin infrastruktur təminatları yenidən bərpa olunub, Suqovuşan su anbarı bölgənin ehtiyaclarına səfərbər edilib. Anbardan Tərtər, Goranboy və Yevlax rayonlarına suyun verilməsi ilə ekoloji tarazlıq təmin olunub.

Bölgədə yay turizmi üçün hədsiz dərəcədə əlverişli coğrafi imkanlar mövcuddur. 2 il əvvəl Prezident İlham Əliyevin bölgəyə səfəri zamanı Suqovuşan qəsəbəsində istirahət parkının açılışı olub. Parkda əhalinin asudə vaxtının səmərəli təşkili üçün sahilboyu gəzinti cığırları salınıb, oturacaqlar, söhbətgahlar, uşaqlar üçün əyləncə meydançası, idman qurğuları quraşdırılıb. Ərazisi 7,5 hektar olan parkda, həmçinin turist informasiya mərkəzi, kafe, üzən estakada, turistlərə xidmət göstərəcək nəqliyyat vasitələri üçün avtodayanacaq yaradılıb. Burada geniş yaşıllaşdırma işləri görülüb, 5 minə yaxın ağac və kol əkilib.

Həm aqrar təsərrüfatların, həm də turizm infrastrukturlarının yaradılması və inkişafında ən birinci təminatlardan biri yol təsərrüfatının qurulmasıdır. Hazırda Suqovuşanda turizm infrastrukturunun yaradılması prosesinin ikinci mərhələsində yeni körpünün inşası, tarixi körpünün və ərazidəki məbədin, eləcə də məbədin ətrafındakı tarixi tikililərin konservasiyası, mövcud Bayraq meydanının parka adaptasiyası həyata keçiriləcək, genişmiqyaslı abadlıq işləri davam etdirilir.

Suqovuşan qəsəbəsində Turizm İnkişaf Konsepsiyası əsasında turizm kompleksi də yaradılmaqdadır. Burada idman turizmi üçün geniş infrastruktur şəbəkəsi qurulur. Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası tərəfindən Suqovuşan qəsəbəsində təşkil edilən ilk avarçəkmə təlim-məşq toplantısından sonra bu bölgədə beynəlxalq idman yarışlarının keçirilməsi qərara alınıb. Bütün bu imkanlar yaxın illərdə Suqovuşanın Qarabağ bölgəsinin və Azərbaycanın ən cəlbedici turizm zonalarından birinə çevriləcəyini əsaslandırır. Bu, yerli turistlərlə yanaşı, xarici turistlərin böyük axınına səbəb olacaq.





### Nəqliyyat qovşaqları...

Azərbaycanın dövlət siyasətində yol infrastrukturunun yaxşılaşdırılması prioritet istiqamətlərdəndir. Yol təsərrüfatının bərpası, yenidən qurulması və müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər işğaldan azad olunmuş ərazilərdə də sürətlə davam etdirilir. Bu ərazilərdə icra olunan yol layihələri yenidən öz doğma torpaqlarına qayıdan əhalinin həyat şəraitinin yaxşılaşdırılması, iqtisadi əlaqələrin gücləndirilməsi və təhlükəsiz nəqliyyat şəbəkəsinin təmin edilməsi baxımından da önəm daşıyır. Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidən qurulması da belə mühüm layihələrdən biridir. Uzunluğu 9,4 kilometr, hərəkət zolaqlarının eni isə 6 metr olan yolda nəqliyyatın rahat və təhlükəsiz hərəkəti üçün zəruri işlər görülüb. Həyata keçirilən yenidənqurma işləri bu yolda rahat gediş-gəlişi təmin edəcək, yük və sərnişin daşınmasını asanlaşdıracaq, bölgənin turizm potensialının inkişafına da töhfə verəcək.



Onu da qeyd edək ki, bölgədə Ağdərə-Ağdam avtomobil yolunun inşası işləri də tamamlanmaq üzrədir. 33,5 km uzunluğa malik Ağdərə-Ağdam avtomobil yolu Suqovuşan-Kəlbəcər avtomobil yolu ilə birləşməsi bu nəqliyyat infrstrukturunun əhəmiyyətini daha da artırır. Umudlu avtomobil və Ağdam-Ağdərə magistral yolu, eləcə də digər nəqliyyat layihələri Ağdərənin sosial-iqtisadi həyatında mühüm rolu var. Bu layihələr bölgədə bizneslə məşğul olmaq istəyən, sərmayə yatırmağa çalışan biznes icmasının gələcək fəaliyyətinin səmərəliliyini də artırmış olacaq. Çünki biznes layihələrində ən mühüm amillərdən biri yol infrastrukturudur, yol faktoru sahibkarların bazara çıxışı üçün xüsusi əhəmiyyət daşıyır. Layihə məşğulluğun artmasında da əhəmiyyət kəsb edir. Belə ki, bu layihəyə cəlb edilmiş yüzlərlə işçinin iş yerləri ilə təmin edilməsi onların sosial vəziyyətinə müsbət təsir etməklə, bölgədəki digər nəqliyyat və yol qovşqalarının inşasına cəlb edilməsi üçün də şərait yaradır.

Həmçinin, Böyük Qayıdışa dair Dövlət Proqramı çərçivəsində Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolunun inşası da davam etdirilir. Uzunluğu 80 km, hərəkət hissəsinin eni isə 9 metr, torpaq yatağının eni 15 metr təşkil edəcək 2 hərəkətli yol zolağı üzrə 6 körpünün, bir sıra yerdə isə istinad divarının inşası da nəzərdə tutulub.

Suqovuşan-Sərsəng su anbarı-Qozlukörpü-Kəlbəcər avtomobil yolu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində icra olunan və işğaldan azad edilmiş ərazilərimizin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yol infrastrukturu layihələrindən biri sayılır.

Beləliklə, bu yol infrastruktları Ağdərənin Kəlbəcər və digər rayonlarla bağlantını təmin edəcək. Nəticədə, çoxşəbəkəli nəqliyyat qovşaqlarının yaradılması sayəsində Ağdam, Ağcabədi, Bərdə və ətraf rayonların Ağdərə və Kəlbəcərlə nəqliyyat bağlantısı təmin olunmaqla, daha qısa məsafələrdən rahat şəkildə bölgənin bütün rayonları ilə ünsiyyətini quracaq.

***ELBRUS CƏFƏRLİ***

# Sülh prosesi müzakirə olunub

## Ceyhun Bayramov ilə Britaniyanın Dövlət katibi arasında telefon danışığı baş tutub




Martın 19-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə Böyük Britaniyanın xarici işlər, ittifaq və inkişaf məsələləri üzrə Dövlət katibi Devid Ləmmi arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, mövcud regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesinin hazırkı durumu müzakirə olunub.

Britaniya naziri Novruz bayramı münasibətilə təbriklərini çatdırıb. İki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinə əminlik ifadə olunub.

Ceyhun Bayramov bölgədəki mövcud vəziyyət və sülh prosesi barədə məlumat verərək, sülh sazişinin mətni üzrə danışıqların yekunlaşmasına baxmayaraq, sazişin imzalanması üçün Ermənistan konstitusiyasında ölkəmizə qarşı ərazi iddialarının aradan qaldırılması məqsədilə müvafiq düzəlişin edilməsinin vacib olduğu vurğulanıb. Bununla yanaşı, ATƏT-in artıq aktual olmayan Minsk qrupu və digər aidiyyəti strukturlarının ləğvinin də vacibliyi diqqətə çatdırılıb.

Nazirlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Əməkdaşlıq üçün unikal mexanizm...

## Azərbaycanın qlobal sülhün gücləndirilməsi sahəsindəki diplomatiyası yüksək qiymətləndirilib

Azərbaycanın qlobal sülhün gücləndirilməsi sahəsindəki diplomatiyası yüksək qiymətləndirilib. AZƏRTAC COP29 Sədrliyinə istinadən xəbər verir ki, bu barədə İqlim və münaqişələrdən əziyyət çəkən ölkələr Şəbəkəsinin birgə bəyanatında qeyd olunub. COP29 sədrliyinin yaydığı məlumatda Şəbəkənin bu mühüm mövqe sənədini qəbul etməsi ötən il COP29-da təsis olunan platformanın inkişafı istiqamətində vacib addım kimi qiymətləndirilir. Qeyd edilir ki, COP29 Sədrliyinin təşkilatçılığı və Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin (XİN) ev sahibliyi ilə təşkil olunan, Şəbəkənin bu il davam edəcək Strateji iclası iqlim dəyişmələrinə və münaqişələrə həssas ölkələrin hökumət üzvlərini, beynəlxalq təşkilatları, maliyyə institutlarını bir araya gətirib. İclasda həssas ölkələr üçün iqlim maliyyəsinin təmin edilməsi və milli potensialların gücləndirilməsi istiqamətində konkret addımlar müzakirə edilib.



COP29 sədrliyinin dəstəyi ilə davam etmiş əlaqələndirmə işi nəticəsində qəbul olunan Birgə Bəyanat və birgə fəaliyyət üzrə Yol xəritəsi qrupa daxil olan ölkələrin vahid mövqeyini formalaşdırmaqla yanaşı, konkret layihələrin icrasını da nəzərdə tutur.

Birgə Bəyanatda COP29 zamanı irəli sürdüyü “Sülh, yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışı”na görə Azərbaycan hökumətinə xüsusi təşəkkür ifadə edilib, bu Çağırış çərçivəsində yaradılmış Bakı İqlim və Sülh Fəaliyyəti Mərkəzinin humanitar yardım, inkişaf, sülh quruculuğu və iqlim sahəsində çalışan tərəfdaşlar arasında əməkdaşlıq üçün unikal mexanizm olduğu vurğulanıb.

COP29-un məlumatında qeyd olunur ki, Azərbaycan Sədrliyi Bakı Mərkəzi ətrafında yaradılmış birgə tərəfdaşlıq platforması vasitəsilə Şəbəkəni dəstəkləməyə, iqlimə, münaqişəyə, humanitar ehtiyaclara həssas ölkələrin milli potensiallarını gücləndirməyə və “Yaşıl Dünya üçün Həmrəylik” prinsipinə əsaslanaraq birgə fəaliyyətin təşviqinə bundan sonra da davam edəcək.

Xatırladaq ki, COP29-da qəbul edilmiş Bakı Sülh Çağırışına əsasən, COP29 Sədrliyinin himayəsi ilə Mərkəzin Bakı şəhərində yerləşməsi qərara alınıb.

# Möhkəm bazaya, güclü etimada əsaslanan əməkdaşlıq

## Xəzər - Qara dəniz - Avropa Yaşıl Enerji Dəhlizi

İndiyədək Azərbaycan bir sıra tərəfdaş dövlətlərlə və şirkətlərlə özünün zəngin neft və qaz ehtiyatlarının hasilatı və xarici bazarlara çıxarılması üzrə uğurlu enerji əməkdaşlığı formatları yaratmağa nail olub. Ölkəmiz daim o mövqedən çıxış edir ki, enerji əməkdaşlığı qarşılıqlı maraqlara əsaslanmalı və bundan bütün iştirakçı tərəflər faydalanmalıdırlar.

Möhkəm bazaya və güclü etimada əsaslanan bu əməkdaşlıq hazırda yaşıl enerji seqmenti üzrə də uğurla davam etdirilir. Artıq bu sahədə də güvənli bir beynəlxalq komandanın formalaşdığı fikrini ifadə edə bilərik. Ötən həftə Macarıstanın paytaxtı Budapeşt şəhərində “Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş”in icrası məqsədilə 10-cu Nazirlər/Rəhbər Komitənin iclası keçirilib. Energetika Nazirliyindən bildirilib ki, tədbirdə Azərbaycanı energetika naziri Pərviz Şahbazov, Macarıstanı xarici işlər və ticarət naziri Peter Siyarto, Gürcüstanı Baş nazirin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Levan Davitaşvili, Rumıniyanı energetika naziri Sebastian-İoan Burduja, Bolqarıstanı isə energetika naziri Jeço Stankov təmsil edib. Görüşdə, həmçinin Avropa Komissiyası, Birgə Müəssisə (GECO Power Company) və CESI şirkətinin nümayəndələri də iştirak ediblər.

### Azərbaycanın enerji diplomatiyasının üçüncü mərhələsi

Prezident İlham Əliyev Azərbaycanın uğurlu enerji diplomatiyasının üç mərhələsini fərqləndirib. Birinci mərhələ neft ehtiyatlarının işlənməsini və xarici bazarlara çıxarılmasını əhatə edir. 1994-cü il sentyabrın 20-də ölkəmizlə transmilli şirkətlər arasında “Azəri-Çıraq-Günəşli” dəniz neft-qaz yataqları blokunun kəşfiyyatı və işlənməsi üzrə “Əsrin müqaviləsi”nin imzalanması ilə neftçıxarma tariximizdə yeni səhifə açılıb.

Azərbaycanın enerji strategiyasının ikinci mərhələsi nəhəng qaz yataqlarının istismarı ilə bağlıdır. Müstəqil Azərbaycanın “Əsrin müqaviləsi”ndən sonra transmilli şirkətlərlə imzaladığı ikinci böyük kontrakt “Şahdəniz” qaz yatağı üzrədir. Hazırda həm “Şahdəniz”dən, həm də digər yataqlardan hasil olunan mavi yanacaq respublikamızın moderatorluğu ilə inşa olunan müasir nəql infrastrukturu - Cənub Qaz Dəhlizi vasitəsilə Avropanın 10 ölkəsinə çatdırılır. Beləliklə, Azərbaycan “qoca qitə”nin enerji xəritəsini əsində yenidən formalaşdırıb.

Perspektivdə isə respublikamızın “qoca qitə”nin enerji təhlükəsizliyinin təmin olunmasında rolu daha da artacaq. Belə ki, Azərbaycandan Avropa İttifaqı məkanına həm də böyük həcmlərdə yaşıl enerji ötürüləcək. Azərbaycanın enerji strategiyasının növbəti üçüncü mərhələsi ölkənin zəngin bərpaolunan enerji potensialından istifadə olunmasını özündə ehtiva edir. Müasir dövrdə dünya üzrə meydana çıxan əsas çağırışlardan biri enerji keçidinin təmin edilməsi ilə bağlıdır. Yeni geosiyasi reallıqlar fonunda Avropa İttifaqı ölkələrində enerji transformasiyasının sürətləndirilməsinə və bunun üçün bir sıra zəruri tədbirlərin görülməsinə başlanıb. Avropa Komissiyasının hazırladığı və hazırda reallaşdırılmaqda olan xilas planında enerji keçidi ilə bağlı mühüm müddəalar yer alıb. Müasir dövlət kimi inkişaf edən Azərbaycan da özünün bərpaolunan enerji potensialından səmərəli şəkildə istifadə etməyi planlaşdırır. O cümlədən perspektivdə Azərbaycanla Avropanın enerji dialoqu yalnız nefti və qazı deyil, həm də enerji bazarının digər seqmentlərini, xüsusilə də elektrik enerjisini, hidrogen və yaşıl hidrogen enerjisini əhatə edəcək. Respublikamızın bərpaolunan enerji potensialı kifayət qədər böyükdür. Bu sahədə Xəzərin Azərbaycan sektorunda təsdiq olunmuş potensialı 157 qiqavata bərabərdir.

Azərbaycanın 44 günlük Vətən müharibəsində işğaldan azad etdiyi ərazilər də bərpaolunan enerji mənbələri ilə kifayət qədər zəngin bir diyardır. İlkin dəyərləndirmələrə əsasən, bəhs olunan ərazilərdə külək, günəş və hidroenerji stansiyalarının potensialı 10 qiqavatdan çoxdur. Azərbaycan artıq bu zəngin potensialın reallaşdırılması mərhələsindədir. Müharibə başa çatandan sonra sözügedən ərazilərdə bir neçə bərpaolunan enerji stansiyasının istismarına başlanıb, çayların üzərində yeni enerji infrastrukturunun yaradılması da intensiv şəkildə davam etdirilir. Əlamətdar haldır ki, ayrı-ayrı xarici şirkətlər də respublikamızda bərpaolunan enerji sektoruna böyük həcmlərdə investisiyalar yönəltməyə başlayıblar. Bu sırada Səudiyyə Ərəbistanının, Birləşmiş Ərəb Əmirliyinin, Birləşmiş Krallığın üç aparıcı enerji şirkətinin fəallığını xüsusi qeyd edə bilərik. Onların investisiya yönəltdiyi stansiyaların ümumi gücü 700 meqavatdan çoxdur. “Baxmayaraq ki, biz faydalı qazıntılarla zənginik, gündəliyimizdə bərpaolunan enerjiyə diqqət yetirilir. Bu gün artıq qərara alınıb ki, gələn illərdə Azərbaycanın bərpaolunan enerji imkanları faydalı qazıntıdan olan enerji istehsalına demək olar ki, bərabər olacaq. Bu gün Azərbaycanda yaradılmış enerji istehsalı imkanları 8 giqavatdır. 2030-cu ilə qədər bizim bərpaolunan enerjidən, əsasən günəş və küləkdən, o cümlədən Azərbaycanın azad edilmiş ərazilərdəki hidroresurslardan əlavə 6.5 giqavatlıq enerji güclərimiz olacaq. Beləliklə, biz bu günə olan potensialımızı demək olar ki, iki dəfə artıracağıq”, - deyə Prezident İlham Əliyev XII Qlobal Bakı Forumunun açılış mərasimindəki çıxışında vurğulayıb.



### Ortaq maraqlar layihəsi

Avropa İttifaqı məkanına elektrik enerjisinin ixracı Azərbaycanın gündəliyinə nisbətən yeni daxil olan bir məsələdir. Hazırda bununla bağlı əsas müzakirə mövzularından biri ixrac marşrutları ilə bağlıdır. Azərbaycanın enerji sistemini Gürcüstan, Türkiyə və Bolqarıstan üzərindən Aİ məkanı ilə əlaqələndirməyə imkan verən infrastruktur mövcuddur. Burada müəyyən işləri görməklə ölkəmizdən Avropaya elektrik enerjisi ixracının həcmini artırmaq mümkündür. Eyni zamanda, yaşıl enerjinin ixracı məqsədilə Qara dənizin dibi ilə kabel xəttinin çəkilməsi optimal nəql marşrutu kimi qəbul olunub. Xatırladaq ki, “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” 17 dekabr 2022-ci ildə Buxarestdə imzalanıb.

Tərəflər layihənin reallaşdırılmasına güclü siyasi iradə nümayiş etdirirlər. Budapeştdə keçirilən iclasda Azərbaycanın bərpaolunan enerji potensialının inkişafı, “Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi” layihəsi üzrə irəliləyişlər və perspektivlər nəzərdən keçirilib. “Yaşıl Enerji Dəhlizi Enerji Şirkəti”nin (GECO) fəaliyyəti, Bolqarıstanın layihəyə cəlbi, CESI şirkəti tərəfindən həyata keçirilən texniki-iqtisadi əsaslandırmanın (TİƏ) cari vəziyyəti, layihənin maliyyələşdirilməsi üzrə Avropa İttifaqı ilə əməkdaşlıqla bağlı məsələlər müzakirə edilib.

Energetika naziri Pərviz Şahbazov bildirib ki, Xəzər dənizinin Azərbaycan seqmentində müəyyən edilmiş 4 sahədə külək enerjisi üzrə bir sıra beynəlxalq şirkətlərlə müvafiq müqavilə sənədləri üzərində işlər aparılır və bu razılaşmalar yaşıl hidrogenin inkişafı ilə bağlı planları da dəstəkləyəcək. Nazir layihənin istehsal və ötürmə komponentləri, eləcə də biznes modelləri, Xəzər dənizinin potensial yaşıl enerji həcmlərinin regionda paylanması ilə bağlı tədqiqatlara dair tövsiyələrini diqqətə çatdırıb. GECO və CESI ilə sıx koordinasiya şəraitində işçi qrupunda iki iş axınının yaradılması təklif edilib: “Birinci axın layihənin iş modellərinə fokuslanaraq potensial investorlar və alıcılarla əlaqə qurulması üçün hazırlıq işlərini apara, ikinci axın isə texniki detalları, ENTSO-E və digər müvafiq qurumların tələblərinə uyğunluğu nəzərdən keçirə bilər”.

Nazir, həmçinin layihənin fiber-optik komponentinin TİƏ ilə bağlı iş həcminə daxil edilməsi üçün də qəti addımların atılmasının vacibliyini diqqətə çatdırıb.

Müzakirələrdən sonra dörd ölkənin nazirləri tərəfindən iclasın yekunlarına dair Protokol və “Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstanın Avropa İttifaqının enerji məsələləri üzrə komissarı Dan Yorgensenə Birgə Məktubu” imzalanıb. Məktub “Xəzər-Qara Dəniz Yaşıl Enerji Dəhlizi” layihəsinə Ortaq Maraqlar Layihəsi (PMI) statusunun verilməsinə müvafiq dəstəyi təmin etmək məqsədi daşıyır. Aİ-nin On İllik Şəbəkə İnkişafı Planına (TYNDP) layihənin daxil edilməsi üçün 2025-ci ilin 1 aprelindən 9 mayına qədər müvafiq müraciətin ötürücü sistem operatoru kimi “Transelectrica” tərəfindən, ümumi prosesə nəzarətin isə GECO ilə birgə həyata keçirilməsi razılaşdırılıb. Həmçinin Bolqarıstanın Hökumətlərarası Sazişə qoşulma prosedurunun başlanması barədə razılığa gəlinib. Birgə Müəssisəyə Bolqarıstanın layihəyə qoşulması və fiber-optik kabel (FOC) komponentlə əlaqədar məsələlərin TİƏ-nin iş həcmində nəzərə alınması üçün müvafiq səlahiyyətlər verilib. İclas çərçivəsində həmçinin Energetika Nazirliyi ilə CESI şirkəti arasındakı müqavilə üzrə əsas səlahiyyət və öhdəliklərin GECO-ya ötürülməsi məqsədilə müvafiq sənəd imzalanıb.

*Mübariz FEYİZLİ*

# Ermənistanın əsassız iddiaları...

## Sülhün əleyhinə yönələn bütün addımların qarşısı alınacaq

Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin mətninin razılaşdırılmasından sonra regionda dayanıqlı sabitliyin təmin olunması imkanı yaranıb. Rəsmi İrəvan sülh sazişini imzalamağa hazır olduğunu bəyan etsə də, bunun üçün məlum şərtləri yerinə yetirməyi unutmamalıdır. Amma görünən odur ki, erməni tərəfi yenə də spekulyasiya etməklə məşğuldur. Əgər belə olmasaydı, özünü “sülh göyərçini” təqdim edən Ermənistan sazişi imzalamaq üçün praktiki addımlar atmaq əvəzinə, şərti dövlət sərhədində hərbi təxribatlar törətməzdi.

### İrəvanın absurd bəyanatı...

Artıq bir neçə gündür ki, erməni hərbi birləşmələri müxtəlif istiqamətlərdə ordumuzun mövqelərini atəşə tutur. Qarşı tərəf isə bunu təkzib etməyə çalışır. Belə ki, Ermənistan baş nazirinin aparatı açıqlama yayaraq, guya Müdafiə Nazirliyinin “yoxlama işləri” apardığını və “yoxlamanın nəticələrinə əsasən, Ermənistan ordusu tərəfindən atəşkəs rejiminin pozulması halının baş vermədiyini” iddia edib. Qurum atəşkəs rejiminin pozulması hallarının və ya oxşar məlumatların araşdırılması üçün birgə Ermənistan-Azərbaycan mexanizminin yaradılması təklifini “xatırladıb”. Əslində, bütün bunlar erməni tərəfinin manipulyasından başqa bir şey deyil. Rəsmi İrəvan həm atəşkəs, həm konstitusiyada dəyişikliklər, həm də kommunikasiyaların açılması ilə bağlı qeyri-ciddi təkliflər və mülahizələr irəli sürür. 30 il Azərbaycana qarşı işğalçı siyasəti yürütmüş bir ölkənin hazırda özünü konstruktiv tərəf kimi təqdim etməyə çalışması absurddur.



### XİN: Ermənistan izahat verməlidir

Yeri gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistan baş nazirinin ofisinin sərhəddə atışmalar və digər iddiaları ilə bağlı bəyanatına münasibət bildirərkən bu məqamları ətraflı şərh edib. XİN rəsmisi qarşı tərəfin Azərbaycana qarşı tamamilə əsassız iddialarla yanaşı, yerdəki reallıqları və sərhədyanı bölgələrdə atışma faktlarını təhrif edən bəyanatını rədd edib. Onun sözlərinə görə, Azərbaycan Müdafiə Nazirliyinin bəyan etdiyi atəş açılması hallarına, eləcə də Ermənistan tərəfinin də xəbərdar olduğu videoçəkilişlərdə görünən Ermənistan hərbi qulluqçularının açıq təxribatlarına son qoyulması sabitlik üçün zəruri şərtdir: “Xoşməramlılıq nümayiş etdirmək və bu cür təxribatlara son qoymaq əvəzinə, Ermənistan tərəfinin mücərrəd və praktiki olaraq qeyri-mümkün təkliflərinin Azərbaycan ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı müddətində olduğu kimi, heç bir əsası yoxdur. Bu, işğala son qoymağa çağırış etmək əvəzinə, Minsk qrupu həmsədrlərinin irəli sürdüyü təklifləri xatırladır. Əgər Ermənistan hökuməti baş nazirin ofisinin də bəyan etdiyi kimi, sülh gündəmini rəhbər tutursa, o zaman sərhədyanı ərazilərdə hücum silahlarının yerləşdirilməsi də daxil olmaqla, kütləvi hərbiləşmənin Ermənistanın belə bir gündəliyinə necə xidmət etdiyi barədə izahat verməsi yerinə düşərdi”.

Ermənistan iki ölkə arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında sazişin mətninin yekunlaşdırılması ilə bağlı guya xoşməramlı mövqe sərgilədiyini də bəyan edib. Amma nəzərə almaq lazımdır ki, məhz Azərbaycanın sülh sazişi üzərində işləmək təklifi ilə ilk addımları hələ 2022-ci ilin əvvəlində atmasına baxmayaraq, Ermənistan bütün vasitələrlə prosesi pozmağa çalışırdı. Paşinyan hakimiyyəti öz havadarlarına güvənərək indiyədək sülh prosesini pozmaq üçün müxtəlif təxribatlar törədib. Azərbaycan isə bu təxribatlara layiqli cavab verdi. Havadarlarından heç bir kömək görə bilməyən Paşinyan masaya qayıtmağa məcbur oldu. A.Hacızadənin də qeyd etdiyi kimi, Ermənistanın danışıqlarda törətdiyi çoxsaylı çağırışlara, o cümlədən Azərbaycan ərazilərindən qalan qüvvələrini çıxarmaqdan imtina etməsinə və ərazilərimizdə qurduqları rejimi təşviq etməsinə baxmayaraq, məhz Azərbaycanın səyləri və tədbirləri nəticəsində prosesdə belə bir nailiyyət əldə olunub.



### Ermənistanın konstitusiyası dəyişdirilməli, Minsk qrupu ləğv olunmalıdır

“Eyni zamanda, Azərbaycana qarşı ərazi iddialarına son qoymaq üçün konstitusiyaya dəyişiklik edilməsi barədə uzun müddət bundan əvvəl irəli sürülmüş tələbimizdən xəbərdar olmasına baxmayaraq, Ermənistanın bu çağırışa məhəl qoymaması olduqca narahatlıq doğurur. Danışıq aparılmış mətnin imzalanması üçün əsas şərtin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiaların aradan qaldırılması məqsədilə Ermənistanın konstitusiyasına dəyişiklik edilməsi olduğu barədə Azərbaycanın prinsipial mövqeyini bir daha diqqətə çatdırırıq”,-deyən XİN rəsmisi bununla yanaşı, ATƏT-in köhnəlmiş və qeyri-funksional Minsk qrupunun və aidiyyəti strukturların rəsmi şəkildə ləğv olunmasının zəruriliyini vurğulayıb. Erməni tərəfi konstitusiyada ölkəmizə qarşı ərazi iddialarının olmadığını desə də, faktları təkzib etmək mümkün deyil. Çünki Ermənistan Konstitusiyasında hələ də Azərbaycan torpaqlarına iddialar qalmaqdadır. Belə olan halda, Paşinyan hakimiyyətinin bu yöndə “şərhlərinin” heç bir mənası yoxdur. Əgər konstitusiya dəyişiklikləri 2026-cı ildə baş tutacaqsa, demək ki, sülh müqaviləsinin imzalanmasının gecikməsinin baiskarı rəsmi İrəvandır.

ATƏT-in Minsk qrupuna gəlincə, bu təsisatın vəzifəsi tərəflər arasında vasitəçilik missiyasını yerinə yetirmək olub. Azərbaycan öz gücünə ərazi bütövlüyünü bərpa etdikdən sonra Minsk qrupuna heç bir ehtiyac qalmayıb. Lakin Ermənistan qurumun ləğvi üçün Azərbaycanın çağırışına müsbət cavab verməkdən yayınır.

### Kommunikasiyalar yeni reallıqlara uyğun şəkildə açılmalıdır

Rəsmi İrəvanın bölgədə silahlara nəzarət “təşəbbüsü” də absurddur. Çünki 30 ilə yaxın müddətdə məhz tərəf olduğu beynəlxalq müqavilələr və silahlara nəzarət mexanizmləri çərçivəsində öhdəliklərini kobud şəkildə pozan, Azərbaycana qarşı təcavüz törədən, ərazilərimizin işğalı müddətində əksər hərbi texnikasını və silah sistemlərini ölkəmizin ərazisində qeyri-qanuni yerləşdirməklə beynəlxalq silahlara nəzarət mexanizmlərindən gizlədən ölkə kimi Ermənistanın belə mexanizmlərdən danışmağa mənəvi haqqı yoxdur.

Kommunikasiyaların açılması məsələsinə gəldikdə, Azərbaycanın qərb bölgələrini Naxçıvan Muxtar Respublikası ilə birləşdirən kommunikasiyaların açılması məsələsi ilə bağlı yazılı təsbit olunmuş və imzalanmış öhdəliklərinə baxmayaraq, Ermənistan bu öhdəlikləri 4 il ərzində yerinə yetirməyib. Bunun əvəzinə, onlar diqqəti prosesdən və öhdəliklərindən yayındırmaq məqsədilə, mahiyyətcə əhəmiyyəti olmayan, icrası çətin və praktiki cəhətdən uzun marşrutlar üzrə təkliflər irəli sürüblər. Əgər Ermənistan tərəfi həqiqətən də bölgədə kommunikasiyaların açılmasında maraqlıdırsa, öhdəliklərindən boyun qaçırmamalı və bölgədəki yeni reallıqlara uyğun şəkildə kommunikasiyaların açılması istiqamətində praktiki addımlar atmalıdır. XİN rəsmisinin bəyan etdiyi kimi, Azərbaycan bütün istiqamətlərdə sülh səylərini davam etdirəcək və bu prosesə qarşı addımların qarşısını qətiyyətlə alacaq.

*Nardar BAYRAMLI*

# Türk dövlətlərinin müasir hədəflərindən biri

## Rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq

Milli Məclis "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin hökumətləri arasında rəqəmsal iqtisadiyyat üzrə tərəfdaşlıq Sazişi"ni ratifikasiya edib. Sənəd TDT üzv dövlətləri arasında elektron ticarətin inkişafı, qanunvericiliyin uyğunlaşdırılması, gömrük tənzimləmələri, maliyyə texnologiyaları (FinTech) kimi mühüm istiqamətlərdə əməkdaşlığı nəzərdə tutur. Həmçinin, saziş türk dövlətləri arasında rəqəmsal ticarətdə istehlakçı hüquqlarının müdafiəsi və kibertəhlükəsizlik sahələrində imkanların birləşdirilməsi kimi prioritetləri əks etdirir.

Qeyd edək ki, rəqəmsal iqtisadiyyat sahəsində əməkdaşlıq türk ölkələrinin müasir hədəflərindən biridir. 2024-cü ilin iyul ayında Şuşada imzalanmış Qarabağ Bəyannaməsinin əsas bəndlərindən biri də məhz qardaş ölkələrin elektron və rəqəmsal ticarət sistemlərinin vahid platformada birləşdirilməsidir. Bu məqsədlə türk dövlətləri qarşıdan gələn illərdə ticarət həcminin həqiqi potensiala çatdırmaq üçün ticarətdə texniki maneələrin aradan qaldırılmasına çalışacaqlar. TDT ölkələri Bəyannamədə Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişinin (DEPA) hazırlanması niyyətini ifadə edib. Həmin sənədin tələblərindən irəli gələrək tərəflər öz səmərələşdirici təkliflərini əsasında DEPA sazişinin yekun layihəsini hazırlayıb. 2024-cü ilin noyabrında Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının 11-ci Zirvə görüşü çərçivəsində üzv dövlətlər arasında Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi (DEPA) imzalanıb.



### Azad Ticarət Rejiminin yaradılması

TDT ölkələrinin əsas prioritetlərdinən biri rəqəmsal azad ticarət rejiminin təmin olunmasıdır. Bu, üzv ölkələr arasında qarşılıqlı ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması istiqamətində vahid siyasətin yürüdülməsini nəzərdə tutur. Ticarətdə elektron mübadilənin yeni mexanizmlərindən biri kimi Türkiyədə qüvvədə olan Yeni Kompüterləşdirilmiş Tranzit Sistemi təcrübəsinin bütün üzv ölkələrdə geniş tətbiqi nəzərdə tutulur ki, bu da iqtisadi-ticarət əlaqələrin təşviqi və mal mübadiləsinin həcmlərinin artırılmasına xidmət edir. Bu baxımdan DEPA sazişi qardaş ölkələr arasında qarşılıqlı ticarətin və xarici investisiyaların həcminin artırılması, birgə iqtisadi layihələrin icrasında təşəbbüskarlığın daha da güclənməsi, eləcə də biznes qurumları arasında işgüzar münasibətlərin genişlənməsi üçün hüquqi əsaslar yaradır.

### "Rəqəmsal İpək Yolu"

Türk Dövlətləri Təşkilatının mühüm prioritetlərindən biri müasir rəqəmsal texnologiyaların və kommunikasiya bağlantılarının yaradılmasıdır. Bu məqsədlə çoxşaxəli "Rəqəmsal İpək Yolu" layihəsi hazırlanıb. Həmin layihə müasir dünyada ən innovativ platformalardan biri olan "Digital Hab"ı formalaşdırmaqla türk dövlətlərinin rəqəmsal iqtisadiyyat blokunda sıx birləşməsinə əlverişli imkanlar yaradacaq. Ötən ilin noyabr ayında Özbəkistanda TDT ölkələri tərəfindən imzalanmış Səmərqənd Bəyannaməsində Trans-Xəzər fiber-optik kabel infrastrukturunun yaradılması barədə razılıq əldə olunub ki, bu anlaşma "Rəqəmsal İpək Yolu"nun mühüm tərkib hissəsidir. Strategiyaya əsasən, Xəzərin dibi ilə "Trans-Xəzər" fiber-optik kabel xəttinin çəkilişinin 2026-cı ilə qədər tam başa çatdırılması nəzərdə tutulub. Bununla da "Digital Hab" sistemi də yaxın illərdə qlobal rəqəmsal ticarətin ən işlək və çevik həlqəsinə çevriləcək.

### Türk İnvestisiya Fondu sərmayələri təşviq edir



TDT-nin maliyyə-bank strategiyasının əsas şaxələrindən biri də üzv ölkələr arasında qarşılıqlı maliyyə və investisiyaların hərəkətini stimullaşdırmaq, birgə sərmayə yatırımlarını təşviq etməkdir. Bu baxımdan həmin iqtisadi baxışı özündə əks etdirən və vahid maliyyə platformasına çevrilən Türk İnvestisiya Fondu ötən il noyabrın 1-dən fəaliyyətə başlayıb. 500 milyon dollar portfeli olan fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya Fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Bu məqsədlərə çatmaq üçün fondun maliyyə portfelinin növbəti mərhələdə daha da artırılaraq 1 milyard dollar təsdiq edilməsi nəzərdə tutulur.

### Vahid ödəniş sistemi...

TDT-nin rəqəmsal iqtisadiyyat quruculuğu ilə bağlı hədəflərindən biri də maliyyə sahəsində əməkdaşlığın gücləndirilməsidir. Ötən il "Türk Dövlətləri Təşkilatına üzv dövlətlərin Mərkəzi (Milli) Banklar Şurasının yaradılması haqqında" memorandum imzalanıb və təsisat fəaliyyətə başlayıb. Şuranın başlıca hədəfi TDT ölkələrinin mərkəzi bankları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, maliyyə sabitliyinin təmin olunması, ödəniş sistemlərinin inkişafı, maliyyə və rəqəmsal texnologiyaların tətbiqi və digər sahələrdə həyata keçirilən siyasətlərin vahid platformada əlaqəndirilməsidir.

Hazırda Türk Dövlətləri Təşkilatına daxil olan dövlətlərin xarici ticarət dövriyyəsinin həcmi təxminən 45 milyard dollar təşkil edir. Bu, onların ümumi ticarət dövriyyəsinin 4 faizə yaxını deməkdir. Ancaq potensial bundan ən azı 10 dəfə böyükdür. Bu baxımdan TİF-nun türk ailəsinin iqtisadi gücünü, maliyyə qüdrətini birləşdirən və nümayiş etdirən struktur kimi vahid iqtisadi mərkəz olacağı şübhə doğurmur.

*E.CƏFƏRLİ*

# Şər üçbucağı...

## Qərəzli fəaliyyət, daxili işlərə müdaxilə cəhdi, dezinformasiya...

### ABŞ hökuməti radikal addımlar atır...

ABŞ-ın yeni administrasiyasının dövlət idarəçiliyini təkmilləşdirmək, büdcənin izafi xərclərdən azad etmək kursunun əhatə dairəsi kifayət qədər geniş olsa da, bu ölkəyə məxsus üç qurum barəsində verilən qərarlar bütün dünyada daha böyük rezonans doğurub. Bu sırada yer alan qurumlardan biri USAID təşkilatıdır. (ABŞ Beynəlxalq İnkişaf Agentliyi). Nə qədər qəribə görünsə də təşkilat ABŞ-ın özündə ifşa olunub. Qısa müddətdə USAID-in əməkdaşlarının sayı 10 mindən 290 nəfərə qədər azaldılıb. Eyni zamanda, qurumun baş qərargahı ləğv edilib.



Üçlüyün siyahısını "Amerikanın səsi" və "Azadlıq Radiosu" tamamlayır. Donald Tramp martın 14-də Qlobal Media Agentliyinin və digər hökumət strukturlarının fəaliyyət dairəsinin əhəmiyyətli dərəcədə azaldılması haqqında sənəd imzalayıb. İndiyədək bütövlükdə 49 dildə yayımlanan 5 böyük media korporasiyası, o cümlədən "Azad Avropa/Azadlıq Radiosu" və "Amerikanın Səsi" sözügedən qurum üzərindən maliyyəşdirilirdi. Dövlət başçısının imzaladığı yeni sənədə əsasən ənənəvi maliyyələşdirmə mexanizminə son verilib. Artıq "Amerikanın Səsi"nin 1300-dən çox jurnalisti, prodüseri və texniki heyəti inzibati məzuniyyətə göndərilib. "Azad Avropa/Azadlıq Radiosu" Media Korporasiyası ABŞ hökumətindən maliyyələşdirmənin dayandırılmasına dair sənədin alındığını təsdiqləyib.

### Rəngli inqilab ssenarilərinin iştirakçıları

Analitik dairələrdə USAID-in, "Amerikanın səsi"nin və "Azadlıq Radiosu"nun fəaliyyətinin dayandırılması şər üçbucağının dağıdılması anlamında təqdim olunur ki, burada da həqiqət payı böyükdür. USAID-in əsası 1961-ci ildə qoyulub. Həmin vaxtdan etibarən "demokratiya", "iqtisadi inkişafa və insan haqlarına dəstək vermək" kimi şüarlar altında pərdələnən qurum özünü dünyaya xoşməramlı bir təşkilat kimi təqdim etməyə çalışıb və buna müəyyən qədər də nail olub. Lakin USAID-in humanizmdən, xeyirxahlıq və inkişaf məqsədlərindən uzaq olduğu, ondan milli dövlətlərə qarşı "yumşaq güc" aləti qismində istifadə edildiyinin aşkarlanması üçün uzun zaman o2lazım gəlməyib. Dünyanın müxtəlif regionlarında, ayrı-ayrı ölkələrdə milli hökumətlərin devrilməsi ssenarilərinin arxasında USAID-in dayandığı aşkarlanıb.

USAID-in əli həmçinin bizim regiona da uzanıb. Qurum region dövlətlərinə aşağıdakı qaydada vəsaitlər ayırıb:

- Gürcüstan: 1,8 milyard dollar,
- Ermənistan: 3,3 milyard dollar,
- Ukrayna: 2022-ci ilə qədər 3 milyard dollar, 2023-cü ildə əlavə 16,6 milyard dollar,
- Moldova: 2,6 milyard dollar.

Ayrılan vəsaitlərin təyinatı müxtəlif ölkələr üçün fərqli olub. Məsələn, qonşu Gürcüstana vəsaitlərin demokratik islahatlar, məhkəmə sisteminin yenidən qurulması və enerji təhlükəsizliyi, Ermənistana əsasən humanitar yardım və vətəndaş cəmiyyətinin gücləndirilməsi, Moldovaya seçki islahatları və Avropaya inteqrasiya prosesinə dəstək üçün ayrıldığı bəyan edilib. Reallıqda isə vəsaitlər tamam fərqli, ölkələrin milli maraqlarına qarşı yönələn məqsədlərə xərclənib. Gürcüstanın və Ukraynanın timsalında bunu aydın şəkildə görmək mümkündür. Ermənistan kimi ölkələrdə isə Amerika vətəndaşlarının vəsaitləri hesabına formalaşan USAID büdcəsinin həm də korrupsiya yeminə çevrildiyi də hər kəsə bəllidir.

USAID kimi, "Amerikanın səsi" və "Azadlıq Radiosu" da ABŞ administrasiyaları tərəfindən Yaxın Şərqdə və keçmiş ittifaq məkanında yaranan milli dövlətlərə qarşı "yumşaq güc" aləti qismində istifadə olunub. Biz son 30 ildə ayrı-ayrı coğrafiyalarda rəngli inqilablar dalğasının şahidi olmuşuq. Təəssüf doğuran haldır ki, cəmiyyətlər "Azadlıq Radiosu" və "Amerikanın səsi" kimi media qurumları vasitəsilə təşviq edilən ideyalara aldanaraq milli hökumətlərin devrilməsi, onların yerində oyuncaq rejimlərin qurulması ssenarilərində özləri də bilmədən yer alıblar. Nəticə isə həm milli dövlətlər, həm də cəmiyyətlər üçün faciəvi olub.

### Azərbaycanda qərəzli fəaliyyətlərə yer yoxdur

Bəhs olunan qurumlar çirkin ssenarilərini Azərbaycanda da həyata keçirməyə çalışıblar. Azərbaycanda 2012-ci ildə baş tutan "Eurovision" mahnı müsabiqəsi, 2015-ci ildə keçirilən ilk Avropa oyunları, həmçinin 44 günlük Vətən müharibəsi günlərində, COP29 ərəfəsində beynəlxalq mediada ölkəmizə qarşı aparılan çirkin kampaniyanın da arxasında elə USAID kimi təşkilatlar dayanıb. Eyni zamanda, USAID dəfələrlə respublikamızda yaşanan qarşıdurma və gərginlik cəhdlərinin maliyyə təminatını həyata keçirib. Məlumdur ki, Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən sonra erməniəsilli sakinlər könüllü olaraq Ermənistana köç etməyə başladılar. Bu zaman USAID dərhal proseslərə müdaxilə etməyə cəhd göstərdi. Qurumun rəhbəri Samanta Pauer Ermənistana səfər etdi, "Qarabağ hadisələrindən zərər çəkənlərə" 4,1 milyon dollardan çox əlavə humanitar yardım ayırdığını bildirdi. O zaman Pauer Azərbaycanın işğaldan azad olunmuş ərazilərində "beynəlxalq müşahidə missiyasının yaradılması" kimi bədnam təşəbbüsü də irəli sürmüşdü.

Ölkəmiz əleyhinə çirkin kampaniyalarda həmçinin "Amerikanın səsi", "Azadıq Radiosu" kimi media qurumları da yer alırdılar. Onlar ölkəmizin müsbət reallıqlarını və uğurlarını öz auditoriyalarına bir qayda olaraq əyri güzgüdən təqdim edirdilər. Hər iki qurumun erməni lobbisinin Azərbaycan əleyhinə apardığı "qara piar" kampaniyalarında yer aldıqları dəfələrlə sübut olunub.

Diqqətçəkən məqam ondan ibarətdir ki, Azərbaycan hər üç qurumun zərərli fəaliyyətlərini daha əvvəl ifşa edib. Məhz USAID-in sərgilədiyi qərəzli əməllərinə görə onun respublikamızda fəaliyyəti 2024-cü il iyunun 1-dən etibarən de-yure dayandırılıb. Eyni zamanda, Azərbaycan hakimiyyəti ayıq-sayıq davranaraq ümummilli ideologiyamıza zidd təbliğat aparan "Amerikanın səsi" və "Azadlıq Radiosu"na qarşı məhdudlaşdırıcı tədbirlər görüb. 2008-ci ildə xarici yayım şirkətləri Azərbaycanın yerli dalğalarından xaric edildikdən sonra "Amerikanın səsi" öz verilişlərini internetdə və peyk televiziyasında yayımlamaq məcburiyyətində qalıb. Qərəzli fəaliyyəti nəzərə alınmaqla 2014-cü ilin dekabrından "Azadlıq Radiosu"nun Bakı bürosu bağlanıb və onun verilişləri Praqadan yayımlanıb.

*Mübariz FEYİZLİ*

# Vətəndaşların siyasi aktivliyi...

## Səmərəli demokratik cəmiyyətin əsasını təşkil edir

Müasir dövrdə ictimai həyatın demokratikləşdirilməsi, insan hüquq və azadlıqlarının qorunması, cəmiyyətin harmonik və sabit inkişafının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətlərindən sayılır. Azərbaycanda gedən tərəqqi proseslərinin, novatorluğun, modernləşmə təşəbbüslərinin lokomotivi qismində də məhz fəal vətəndaş, hüquqi dövlət anlayışı tandemi dayanır. Ölkəmiz müstəqillik qazandığı dövrdən indiyə kimi insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox mühüm addımlar atılıb. Nəticə etibarı ilə bu gün cəmiyyət özünün davranışlarında bu üstünlüyü ortaya qoymaqdadır - bütün siyasi proseslərdə aktivlik nümayiş olunur, milli maraqların qorunması üçün hərtərəfli dəstək verilir. Təcrübə isə göstərir ki, ictimai fəallığın yüksək səviyyədə olduğu ölkələrdə həm də demokratik təsisatların fəaliyyətinin effektivliyi artır. Vətəndaşların siyasi fəallığının artırılması cəmiyyətin inkişafında mühüm rol oynayır.

Sevindirici haldır ki, bu gün Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti bir-birini tamamlayır. Ölkəmizdə informasiya əldə etmək azadlığı təmin edilir, internet əlçatandır. Şəffaf və elektron fəaliyyət mexanizmi cəmiyyət ilə dövlət arasında əlaqələri daim gücləndirməkdədir.

**Yetkin vətəndaş cəmiyyəti olmadan...**

Mövzunu "Yeni Azərbaycan"a dəyərləndirən Bakı Qeyri-Hökumət Təşkilatlarının Resurs və Təlim Mərkəzinin sədri Rauf Zeyni bildirib ki, fəal vətəndaşlığın inkişafında təhsil əsas rol oynayır. Bundan əlavə, demokratik təsisatların fəaliyyət prinsiplərini və hakimiyyətə təsir mexanizmlərini izah etməyə yönəlmiş maarifləndirici layihələr də vacibdir: "Azərbaycan cəmiyyəti hər zaman milli dövlətçiliyə, müstəqilliyə, suverenliyin qorunmasına sıx bağlı olub. Ekspertlərin fikrincə, bu gün Azərbaycan xalqının qətiyyəti, ölkə rəhbərliyinin milli maraqlara uyğun siyasəti demokratik hüquqi dövlətin qurulmasına səbəb olub. Azərbaycanda dövlət və vətəndaş cəmiyyəti bir-birini tamamlayır, bir-birindən asılı olur. Yetkin vətəndaş cəmiyyəti olmadan, hüquqi, demokratik dövlət qurmaq mümkün deyil. Çünki məhz azad vətəndaşlar şüurlu insan birgəyaşayışının ən səmərəli formasını yarada bilər".

**Müasir texnologiyalar siyasi iştirakçılığı əlçatan edir**

R.Zeyninin sözlərinə görə, hazırda ölkə vətəndaşları dövlətin idarə edilməsində, ayrı-ayrı məsələlərin həllinə təşəbbüs göstərməkdə fəaldırlar: "Hesab olunur ki, bu, cəmiyyətin mental dəyərləri, onun tarixi, mədəni keyfiyyətlərinin yüksək olması, bu gün əldə etdiyi-



miz demokratik, hüquqi, sosial məsələlərin həllini diqqətdə saxlayan bir dövlətimizin olması ilə bağlıdır. O da vacibdir ki, müasir texnologiyalar siyasi iştirakçılığı daha əlçatan edir. Onlayn qaydada olan proseslər vətəndaşların ölkənin idarə olunması prosesinə cəlb olunmasına kömək edir. Sosial media da informasiyanın yayılmasında və fəal əhali qruplarının səfərbər olunmasında mühüm rol oynayır. Dövlət və ictimai təşkilatlar vətəndaşlara siyasi həyatda iştirakın real mexanizmlərini təklif edir. Könüllü proqramlar, ictimai şuralarda iştirak, müstəqil seçki müşahidəçiləri - bütün bunlar insanlara ölkədə gedən proseslərə təsir etmək imkanı verir. Azərbaycanda vətəndaşların sosial, siyasi fəallığının yüksək olmasını seçki proseslərində və digər məsələlərə münasibətdə müşahidə olunur".

**Siyasi fəallıq milli təhlükəsizliyin mühüm elementidir**

R.Zeyni qeyd edib ki, siyasi sistem daha şəffaf və cəmiyyət qarşısında hesabatlı olmalıdır: "Dövlət orqanlarının fəaliyyətinin monitorinqində vətəndaşların iştirakı siyasi sistemə inamı artırmağa kömək edir. Bir daha qeyd edək ki, vətəndaşların siyasi fəaliyyəti səmərəli demokratik cəmiyyətin əsasını təşkil edir. Onu davamlı inkişaf etdirmək üçün təhsilin təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların inkişafı, siyasi sistemdə çatışmazlıqlarla mübarizə və gənclərin təşəbbüslərinin dəstəklənməsi daxil olmaqla kompleks tədbirlər həyata keçirmək daim diqqət mərkəzində yer almalıdır.

Azərbaycanın yanaşması odur ki, milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, demokratik prinsiplərin də inkişafı vacibdir. Ölkəmizdə bu istiqamətdə ciddi işlər görülür. Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan zamanın tələblərinə uyğun olaraq müasir texnologiyalardan istifadə, açıq internet şəbəkəsinin formalaşması, söz azadlığı, demokratik prinsiplərin inkişaf etdirilməsi istiqamətində zəruri işlər görür. Azərbaycan dövləti ölkədə sosial və siyasi fəallığın artırılması istiqamətində mühüm addımlar atmaqdadır. Bu da insanların siyasi fəallıq səviyyəsini davamlı şəkildə yüksəldir. Vətəndaşların sosial və siyasi fəallığının artırılmasının digər mühüm əhəmiyyəti dövlətin milli təhlükəsizliyi və özünümüdafiəsi ilə bağlıdır. Cəmiyyətdə insanların sosial və siyasi fəallığı yoxdursa, bu boşluğu zərərli və təhlükəli ünsürlər, radikal qruplar doldurur. Azərbaycanda bu məsələ daim dövlətin xüsusi diqqət mərkəzində yer alır və müvafiq tədbirlər görülür".

*Yeganə*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti üzrə hazırlanmışdır**

# ABŞ geri çəkilir

## Avropanın təhlükəsizliyində Türkiyə amili önə çıxır

**ABŞ Prezidenti Donald Tramp hələ seçki kampaniyası zamanı NATO müttəfiqlərindən narazılıq ifadə etmişdi. Trampın fikrincə, Avropa ölkələri müdafiə xərclərinə kifayət qədər vəsait ayırmır, əsas yük Birləşmiş Ştatların üzərindədir. O, prezident seçiləcəyi təqdirdə ABŞ-ın NATO-nu tərk edəcəyi ilə hədələmişdi. Seçkidə qələbə qazanan və bu ilin yanvarından dövlət başçısı kimi fəaliyyətə başlayan Tramp NATO üzvü olan Avropa ölkələrindən üzərlərinə düşən öhdəlikləri yerinə yetirməyi tələb edir. Görünən odur ki, Vaşinqton alyansın digər üzvlərinin əvəzinə çox pul xərcləmək, onların təhlükəsizliyini öz üzərinə götürmək istəmir.**

## ABŞ baş komandan vəzifəsindən imtina edir...

Bu mövzu ilə bağlı "NBC News" telekanalı Pentaqondakı mənbələrə istinadən maraqlı məlumat yayıb. Məlumata əsasən, Donald Trampın administrasiyası 1951-ci ildən bəri yalnız amerikalı generalların tutduğu NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı vəzifəsindən imtina etmək imkanını müzakirə edir. Bildirilib ki, təşəbbüs, xərclərin azaldılmasına yönəlmiş ABŞ-ın döyüş komandanlıqlarının yenidən genişmiqyaslı təşkilinin bir hissəsidir. Telekanal qeyd edib ki, əgər plan həyata keçərsə, bu, ABŞ-ın alyansda liderlikdən geri çəkilməsi kimi qəbul edilə biləcək simvolik bir addım olacaq.

"NBC News"un mənbələri onu da deyib ki, yenidən təşkil müəyyən vaxt ala bilər və büdcə üzərində nəzarət vasitəsilə təşəbbüsü bloklamaq iqtidarında olan Konqreslə müzakirə olunacaq. Telekanal, həmçinin vurğulayıb ki, ABŞ Silahlı Qüvvələrinin Avropa Komandanlığına (EUCOM) rəhbərlik edən NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanı Rusiyanın Ukraynaya qarşı müharibəsində Kiyevin dəstəklənməsində əsas rol oynayır:

"Yenidən təşkil planı EUCOM və ABŞ Silahlı Qüvvələrinin Afrika Komandanlığının (AFRICOM) Ştutqartda yerləşən bir bölməyə birləşdirilməsini, həmçinin Florida ştatındakı Cənub Komandanlığının (SOUTHCOM) qərargahının bağlanmasını və onun funksiyalarının Şimal Komandanlığına (NORTHCOM) ötürülməsini nəzərdə tutur. Pentaqonun hesablamalarına görə, bu, ilk ildə 270 milyon dollara qədər qənaət etməyə imkan verəcək".



## Avropa İttifaqı təşviş içindədir

Vaşinqtonun bu yöndəki planları isə Avropa İttifaqını ciddi narahat edir. Artıq blok Trampın planları fonunda müdafiə və hərbi sənaye potensialının əhəmiyyətli dərəcədə artırılmasını düşünür. Məsələn, Danimarkanın Baş naziri Mette Frederiksen "Politico" nəşrinə müsahibəsində deyib ki, yaxın 3-5 il ərzində Avropanın müdafiə məsələlərində özünü tam təmin edə bilməsi son dərəcə vacib məsələdir: "Mən Avropanın yenidən silahlanmasının tərəfdarıyam. İstəyirəm ki, 3-5 ildən sonra özümüzü müdafiə etməyə tam hazır olmaq kimi qarşımıza çox iddialı bir məqsəd qoyaq". M. Frederiksen, həmçinin etiraf edib ki, Avropa İttifaqı ölkələrində yenidən silahlanma prosesi kifayət qədər sürətlə getmir. Onun sözlərinə görə, Aİ hələ də "sülh dövrü düşüncəsi ilə yaşayır" və Brüssel bu istiqamətdə maliyyəni mümkün qədər tez artırmaq üçün maneələri aradan qaldırmalıdır.



Xatırladaq ki, bir müddət öncə, Fransanın iqtisadiyyat, maliyyə, sənaye və rəqəmsal suverenlik naziri Erik Lombard Parisdə keçirilən "Euronext" konfransında çıxış edərkən Avropanın ABŞ-dan asılılığı aradan qaldırmaq üçün öz müdafiə sənayesini maliyyələşdirməli olduğunu bildirmişdi. Avropa Komissiyasının rəhbəri Ursula Fon der Lyayen isə öz növbəsində qeyd edib ki, Aİ 2030-cu ilədək güclü müdafiə mövqeyinə malik olmalı və Brüssel bunun üçün indidən fəaliyyətə başlamalıdır.

## Politoloq: Türkiyə NATO-nun şərq təhlükəsizliyinin təminatında aparıcı ölkədir

Məsələ ondadır ki, bu gün müdafiə və təhlükəsizlik məsələsində Avropa Türkiyəyə böyük ehtiyac duyur. Aİ-nin keçirilən son toplantılarına Türkiyənin xüsusi dəvət olunması bunun göstəricisidir. Yəqin ki, burada Türkiyənin NATO-da ikinci hərbi güc olması əsas rol oynayır. Əgər ABŞ NATO-nun Avropadakı Birləşmiş Silahlı Qüvvələrinin baş komandanlığı vəzifəsindən imtina edərsə, bu posta Türkiyə hərbçilərinin gətirilməsi nə dərəcədə realdır?

Mövzu ilə bağlı qəzetimizə açıqlamasında politoloq Züriyə Qarayeva bildirib ki, hələ 2018-ci ildə prezident Donald Tramp ABŞ-ı NATO-dan çıxara biləcəyi ilə bağlı xəbərdarlıq etmişdi: "O, digər ittifaq üzvlərinin müdafiə xərclərinə ədalətli töhfə vermədiklərindən şikayət etdi. Konqres isə fərqli düşünürdü. Qurum 2020-ci il Milli Müdafiə Səlahiyyəti Aktına ABŞ ordusu üçün maliyyə təmin edən xüsusi müddəa əlavə edib. Sənədin 1250A bölməsində deyilir ki, prezident Konqresin aktı və ya Senatın üçdə ikisinin təsdiqi olmadan ABŞ-ı NATO-dan birtərəfli qaydada çıxara bilməz. Ola bilsin ki, Tramp NATO-nu sarsıtmaq üçün rəsmi şəkildə qurumdan çıxmaq məcburiyyətində qalmasın. Məsələn, keçən il britaniyalı ekspertlər tərəfindən idarə olunan bir müharibə oyunu aşkar etdi ki, Tramp ABŞ-ı daha az iş görməklə alyansı sabotaj edə bilər. Bu, ABŞ-ın NATO təlimlərində iştirakını minimuma endirmək və ya Amerika zabitlərinin NATO komandirləri kimi xidmət etmələrini məhdudlaşdırmaqdan ibarət ola bilər. ABŞ-ın alyansdan çıxmasının nəticələri qlobal olacaq və proqnozlaşdırmaq çətindir".

Politoloqun fikrincə, bütün bu addımlar NATO-nun ikinci böyük ordusu olan Türkiyənin rolunu daha da artıra, müvafiq istiqamətdə yerdəyişmə imkanları yarada bilər. "Nəzərə almaq lazımdır ki, Türkiyə NATO-nun şərq təhlükəsizliyinin təminatında aparıcı ölkədir. Hazırda Trampın yürütdüyü siyasət elə bu cinahdan Avropa üçün təhlükə yaratdığına görə Ankara yaxın perspektivlərdə ABŞ-ın rolunu üstlənmiş ola bilər",- deyə Z.Qarayeva vurğulayıb.

*N.BAYRAMLI*

# İki saatlıq "söhbət"...

## ABŞ Ukraynada atəşkəsə nail olacaqmı?



ABŞ Prezidenti Donald Tramp ilə Rusiynın dövlət başçısı Vladimir Putin arasındakı telefon danışığı "məhsuldar" alınıb. Bunu Tramp "Truth Social"dakı paylaşımında qeyd edib. O bildirib ki, iki saata yaxın davam edən Putinlə telefon danışığı yaxşı və məhsuldar olub. Ağ ev rəhbəri Putinlə əsasən Ukrayna müharibəsi ilə bağlı fikir mübadiləsi apardığını deyib: "Sülh sazişinin bir çox elementləri, o cümlədən minlərlə əsgərin həlak olması və həm prezident Putin, həm də prezident Volodimir Zelenskinin bunun dayandırılmasını istəməsi müzakirə olunub".

Tramp vurğulayıb ki, tam atəşkəs rejiminin tətbiqi üzrə işlər sürətləndiriləcək: "Proses artıq tam qüvvədədir. Ümid edirik, bəşəriyyət naminə bu işi görəcəyik. Biz Rusiya və Ukrayna arasındakı bu



dəhşətli müharibənin yekunda dayandırılması və nəticədə tam atəşkəsə doğru sürətlə işləyəcəyimiz anlayışı ilə bütün enerji və infrastruktur obyektləri üzrə dərhal atəşkəs barədə razılığa gəldik", - o qeyd edib.

**Liderlər razılaşdı...**

Telefon danışığı ilə bağlı Ağ Evin yaydığı rəsmi məlumatda da iki liderin müharibəsinin dayandırılması və sülh prosesinin başlanması barədə müzakirələr apardığı vurğulanıb. Hər iki lider Rusiya və ABŞ arasındakı ikitərəfli münasibətlərin yaxşılaşdırılmasının zəruriliyini qeyd ediblər. Bildirilib ki, həm Ukraynanın, həm də Rusiyanın bu müharibədəki itkiləri öz xalqlarının ehtiyaclarına yönəldilməlidir.

Açıqlamada qeyd olunur ki, münaqişə heç vaxt başlamamalı və çoxdan səmimi və xoşniyyətli sülh səyləri ilə başa çatmalı idi. Liderlər sülhə doğru addımların enerji və infrastruktur atəşkəsi ilə başlanacağını razılaşdırıblar. Bundan əlavə, Qara dənizdə dəniz atəşkəsinin tətbiqi, tam atəşkəs və daimi sülhün təmin edilməsi üçün texniki danışıqların aparılacağı bildirilib. ABŞ ilə Rusiya arasında daha yaxşı münasibətlərin böyük iqtisadi faydalar və geosiyasi sabitlik gətirəcəyi söylənilib. Sülh təmin edildikdən sonra böyük iqtisadi razılaşmaların və beynəlxalq stabilliyin əldə olunacağı qeyd olunub.

**Ərazilərlə bağlı müəmma...**

Amerikanın "Semafor" nəşri isə iki mənbəyə istinadən bəzi məlumatlar yayıb. Bildirilib ki, Vaşinqton Krım yarımadasının Rusiya ərazisi kimi tanınması imkanını nəzərdən keçirir. Nəşrin mənbələri bildiriblər ki, Ağ Ev eyni zamanda BMT-ni də buna çağırmaq imkanını müzakirə edir. "Semafor" vurğulayıb ki, heç bir yekun qərar verilməyib və bu seçim Tramp komandasının Rusiya-Ukrayna müharibəsini bitirmək səyləri çərçivəsində nəzərdən keçirdiyi bir çox variantdan biridir. Xatırladaq ki, Ağ Evin mətbuat katibi Caroline Livitt martın 17-də keçirdiyi mətbuat brifinqində Trampın adminstrasiyasının Ukrayna rəsmiləri ilə mümkün ərazi güzəştlərini müzakirə etdiyini təsdiqləyib, lakin konkret təfərrüatlar açıqlamayıb. Bundan əvvəl isə ABŞ Ədliyyə Departamenti ölkənin Ukraynaya Qarşı Təcavüz Cinayətlərinin Mühakiməsi üzrə Beynəlxalq Mərkəzdən (ICPA) çıxması barədə Avropa rəsmilərini özəl olaraq xəbərdar edib.

**Zelenski "narahatdır"...**

Telefon danışığının ardından brifinq keçirən Ukrayna prezidenti Zelenski isə razılaşmaların hələ işə yaramadığını deyib. O bunu danışıqlar zamanı Ukraynada hava hücumu siqnallarının səslənməsi ilə əlaqələndirib. "Düşünürəm ki, ukraynalılar nə baş verdiyini anlayırlar. Hazırda Ukraynada narahatlıq var. Yəni, bu, prinsipcə, baş verənlərə cavabdır. Bildiyimə görə, ruslar Prezident Trampla söhbəti zamanı dərhal enerji infrastrukturuna hücumların dayandırılması əmrini verdilər", - deyə Zelenski bildirib. O vurğulayıb ki, indi qaldırılan yeganə sual enerji sektoruna zərbə vurmamaqdır. Dövlət başçısı qeyd edib ki, Amerika tərəfi Ukrayna ilə razılaşmalara hörmətlə yanaşaraq, Ciddədə Ukrayna ilə müzakirə olunan təklifləri irəli sürüb.

**Şolts Avropanı "yada salır"...**

Almaniya Kansleri Olaf Şolts və Fransanın Prezidenti Emmanuel Makron isə Ukraynaya dəstəyin davam etdiriləcəyini açıqlayıblar. Şolts, Makronla keçirdiyi danışıqlardan sonra jurnalistlərə verdiyi açıqlamada bildirib ki, hər iki ölkə başçısı eyni fikirdədir: "Ukrayna bizə güvənə bilər, Ukrayna Avropaya güvənə bilər, biz onu tək qoymarıq".

Almaniya kansleri Trampın Putinlə telefon danışığının nəticələrini şərh edərkən deyib ki, enerji obyektlərinə hücumların dayandırılması çağırışı yaxşı başlanğıcdır. Bununla yanaşı, Şolts vurğulayıb ki, Ukraynasız sülhün əldə olunmasına dair razılaşma ola bilməz.

*SADİQ*

# Qəzzada "atəş" səsləri...

## Atəşkəs ikinci mərhələdə iflasa uğradı

Qəzzada münaqişə yenidən alovlanıb. HƏMAS-ın israilli girovları azad etməkdən imtinasının ardından İsrail Hərbi Hava Qüvvələri Qəzzada HƏMAS-ın hərbi mövqelərinə hava zərbələri endirməyə başlayıb. Qətərin "Al Jazeera" telekanalının məlumatına görə, martın 18-də gecə saatlarından başlayaraq İsrail ordusu anklava kütləvi hücumlar həyata keçirib. Qəzzanın Rəfah və Xan-Yunis şəhərlərinə, o cümlədən digər yaşayış məntəqələrinə raket zərbələri endirilir. "CBC"-nin məlumatında qeyd olunur ki, İsrail qırıcılarının hücumları nəticəsində 400-dən çox dinc sakin həlak olub. İsrailin Baş naziri Benyamin Netanyahu və ölkənin müdafiə naziri İsrail Katz HƏMAS-ın girovları tam azad etməyənə qədər hücumların davam edəcəyini bəyan ediblər. Netanyahu öz çıxışında bildirib ki, İsrail öz məqsədlərinə nail olmaqda qərarlıdır və heç bir qüvvə onlara mane ola bilməz: "HƏMAS məhv ediləcək və Qəzzanın İsrail üçün təhlükəsiz zonaya çevrilməsinə qədər hərbi əməliyyatları davam etdirəcəyik,"- deyə Netanyahu vurğulayıb. İsraildə bəzi KİV-lər iddia edirlər ki, İsrail Quru Qoşunlarının da Qəzzada hərbi əməliyyatları gözlənilir.

Xatırladaq ki, ABŞ, Qətər və Misirin vasitəçiliyi ilə aparılan uzunmüddətli danışıqlar nəticəsində bu il yanvarın 19-da İsrail ilə HƏMAS arasında atəşkəs sazişi imzalanmışdı - üç mərhələdən ibarət olan sazişin müddəalarına əsasən, ilk növbədə İsrail hərbi birləşmələri bölgədən geri çəkilməli, Qəzza sakinləri öz evlərinə qayıtmalı və bölgəyə humanitar yardım çatdırılmalı, fələstinli və israilli girovlar mərhələli şəkildə azad olunmalı idilər.

Artıq Qəzzadakı vəziyyətə beynəlxalq ictimaiyyət reaksiya verib - BMT-nin İnsan Hüquqları Təşkilatı, o cümlədən Misir və bəzi ərəb ölkələri İsraili dərhal hərbi əməliyyatları dayandırmağa və atəşkəsə əməl etməyə çağırıblar.

### Əsas səbəb HƏMAS-ın özüdür



Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Zifəroğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, İsrailin Qəzzada HƏMAS-ın mövqelərinə hücumları gözlənilən idi. Onun sözlərinə görə, HƏMAS-ın tam sıradan çıxarılması İsrailin təhlükəsizlik strategiyasında ilkin prioritetdir. "Əslində İsrail hökuməti artıq həftələrdir ki, Qəzzada əməliyyatları bərpa edəcəyi ilə bağlı təhdidlər səsləndirirdi. İsrailin dövlət rəsmiləri hesab edirlər ki, HƏMAS-ın yenidən güclənməsi və Qəzzada nəzarəti ələ alması girov mübadiləsini çətinləşdirir. Məhz buna görə də onlar HƏMAS-a hücumların daha çox girovun azad edilməsinə gətirib çıxaracağını düşünürlər. Lakin bu qərarın özü İsrailin daxilində birmənalı qarşılanmır. Məsələn, girovların ailələri bu strategiyanın nəticə verməyəcəyindən narahatdırlar", - deyən V.Zifəroğlu vurğulayıb ki, İsrail son həftələrdə hərbi gücünü yenidən bərpa edib: "ABŞ-dan göndərilən silah tədarükləri ilə sursat ehtiyatları yeniləndi, yeni hədəflər müəyyən edildi və qırıcı təyyarələr yeni hərbi texnikalarla təmin olundu. Uzun müddət əməliyyatlarda iştirak edən əsgərlər isə istirahət edərək yeni hərbi əməliyyatlara hazırlaşdılar".

### Pərdəarxası faktorlar

"Təbii ki, atəşkəsin pozulması danışıqlara mənfi təsirini göstərəcək. Üç mərhələdən ibarət olan atəşkəs planı müharibənin tamamilə bitməsini, İsrail ordusunun Qəzzadan geri çəkilməsini və HƏMAS-ın əlindəki bütün girovları azad etməsini nəzərdə tuturdu. Lakin bilindiyi kimi, danışıqlar uğursuz oldu. İsrail ilk atəşkəs mərhələsini 30-60 gün uzadaraq girov mübadiləsinin davam etməsini təklif etsə də, HƏMAS bu təklifi rədd etmişdi. HƏMAS, İsrailin girov mübadiləsinin ikinci mərhələsinə keçmək öhdəliyini yerinə yetirmədiyini iddia edirdi. İsrail isə HƏMAS-ı yeni girov azad etmə prosesinə mane olmaqda günahlandırır", - deyə V.Zifəroğlu bildirib. O qeyd edib ki, hərbi əməliyyatların məhz indi başlamasına səbəb olan başqa pərdəarxası faktorlar da var: "İlk növbədə vurğulamaq lazımdır ki, yanvar ayında əldə edilən atəşkəsin ikinci mərhələsinə keçmək İsrailin Qəzzadan geri çəkilməsi anlamına gəlirdi. Bu isə HƏMAS-ın bölgədəki nəzarətini qoruyub saxlamasına gətirib çıxara bilər. Netanyahu bu ssenariyə qətiyyən müsbət baxmır. İsrail başlıca təhdid olaraq məhz HƏMAS-ı görür və hətta bu məsələdə Mahmud Abbas administrasiyası ilə eyni fikirdədir. Qeyd edim ki, Mahmud Abbas bir neçə gün bundan əvvəl çıxışında atəşkəsin pozulmasında məhz HƏMAS-ı günahlandırıb".

### Tam dəstək...

Politoloq hesab edib ki, Qəzzada hərbi əməliyyatlar davam edəcəyi müddətdə Tramp İsraili tam şəkildə dəstəkləyəcək: "Prezident seçkilərindən sonra İsrailin Baş naziri Benyamin Netanyahu ABŞ-a



səfər etməklə yeni administrasiyanın nəbzini yoxlaya bildi. Şübhəsiz ki, Tramp administrasiyası birinci dönəmdə olduğu kimi, ikinci dönəmdə də İsrailin yanında olacaq. Trampın İsrailə dəstək bəyanatları HƏMAS-a qarşı hücumları artırmaq üçün münasib şərait yaradır".

V.Zifəroğlu vurğulayıb ki, Netanyahu İsrail parlamentində (Knesset) kritik səsvermələrdə ifrat sağçı müttəfiqlərinin dəstəyinə də ehtiyac duyur: "İfrat sağçılar Qəzzada müharibənin bitməsinə qəti şəkildə qarşı çıxırlar. Elə yanvar ayında əldə edilən atəşkəsi etirazla qarşılayan bir nazir hökumətdən istefa vermişdi. "Guardian" qəzetinin yaydığı məlumata görə, İsrailin baş naziri bazar günü İsrail Daxili Təhlükəsizlik Xidmətinin rəhbərini də vəzifədən uzaqlaşdırmağa çalışacağını açıqlayıb.

Bu addım İsrailin daxilindəki müxalif qüvvələr tərəfindən demokratik nəzarət mexanizmlərini aşmağa yönəlmiş yeni bir cəhd kimi qiymətləndirilir və həftənin sonuna doğru genişmiqyaslı etiraz aksiyalarına keçirilməsi gözlənilir. Qəzzada hərbi əməliyyatların başlaması ilə artıq bu etirazçılar Netanyahunun tərəfdarları tərəfindən "vətən xainləri" kimi təqdim oluna bilər".

*Yunis ABDULLAYEV*

# Yardım davam edəcək

## Trampın əsas məqsədi atəşkəsə nail olmaqdır



ABŞ Ukraynaya silah-sursat tədarükünü və kəşfiyyat məlumatlarının mübadiləsini bərpa edir. Ukraynanın media orqanı - "UNİAN"ın məlumatına görə, bu, martın 10-da Səudiyyə Ərəbistanının Ciddə şəhərində keçirilən ABŞ-Ukrayna danışıqlarının yekunlarına dair birgə bəyanatda qeyd olunub. "ABŞ kəşfiyyat məlumatlarının mübadiləsində fasiləni dərhal aradan qaldırır və Ukraynaya təhlükəsizlik yardımını bərpa edir", - deyə bəyanatda bildirilib.

Mətndə, həmçinin vurğulanıb ki, Vaşinqton və Kiyev davamlı sülhün bərpası istiqamətində mühüm addımlar atıb. Bu kontekstdə hər iki ölkənin nümayəndələri dövlətini müdafiə edən Ukrayna xalqının cəsarətini yüksək qiymətləndiriblər və uzunmüddətli sülhün bərqərar olması prosesinə indi başlamağın vaxtı olduğu ilə razılaşıblar. Xatırladaq ki, hərbi yardım və kəşfiyyat məlumatlarının mübadiləsi fevralın 28-də Ağ Evdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə amerikalı həmkarı Donald Tramp arasında baş verən mübahisədən sonra qısa müddətə dayandırılmışdı.

**Tramp Putini atəşkəsə vadar edir?**

Maraqlısı budur ki, Trampın bu qərarı bir çoxları üçün təəccüblü görünür. Bir yandan münaqişə tərəfləri arasında atəşkəsə nail olmaq istəyir, digər tərəfdən isə Ukraynaya hərbi yardımı bərpa etdirir. Ümumiyyətlə, Trampın bir-birinə zidd addımlar atması qeyri-müəyyənlik yaradıb. Bir çoxları üçün Trampın əsl niyyətinin nə olduğu qaranlıq qalır. Ekspertlərin fikrincə, Vaşinqtonun Kiyevə hərbi yardımı bərpa etməsi bir neçə səbəblə bağlıdır. Onlar hesab edirlər ki, Putinin Vaşinqtonun təklifinə o qədər də müsbət yanaşmaması ABŞ-da ciddi narahatlıq yaradıb - onların iddialarına görə, Trampın bu qərarında əsas hədəfi Putini atəşkəsə razı salmaqdır. Artıq Trampın özü və onun komandasının üzvləri atəşkəslə bağlı Moskvaya ciddi xəbərdarlıq edib.

**Tramp istəyinə nail olacaq**

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Tramp Kiyevə şərtlərini qəbul etdirməyi bacardı. "Trampın martın 10-da Səudiyyə Ərəbistanının Ciddə şəhərində ABŞ-Ukrayna danışıqlarından sonra Ukraynaya hərbi yardımı bərpa etməsi barədə qərarı həm gözlənilən, həm də təəccüblü idi. Bildiyimiz kimi, Ukraynaya ABŞ-ın silah təchizatı Zelenski ilə olan görüşün gərgin və nəticəsiz keçdiyi üçün dayandırılmışdı. Lakin Ciddədə keçirilən görüşdə Ukrayna nümayəndə heyətinin ABŞ tərəfindən irəli sürülən bütün təkliflərə, hətta atəşkəs rejiminin tətbiq olunmasına razılıq verməsi vəziyyəti dəyişdi. Məhz bundan sonra ABŞ Kiyevə silah-sursat təchizatını bərpa etdi", -deyən politoloqun sözlərinə görə, ABŞ Ukraynada atəşkəsin təmin olunmasına nail olacaq: "Rusiyanın danışıqlar və atəşkəs üçün irəli sürdüyü tələblərdən biri Ukraynanın Avropa İttifaqı ölkələri və ABŞ tərəfindən silahlandırılmasının dayandırılmasıdır. Rusiya israrla Ukraynaya hərbi yardımın kəsilməsini tələb edir. Amma bu tələb və şərtlər nə Aİ, nə də ABŞ tərəfindən qəbul olunub. Çünki onlar müharibənin davam etdiyi halda Ukraynanın təchizatının kəsilməsini Rusiyanın daha geniş əraziləri işğal etməsinə gətirib çıxaracağını düşünürlər. Trampın əsas məqsədi atəşkəsə nail olmaqdır. Hesab edirəm ki, Tramp Moskvaya da öz təklifini qəbul etdirməyi bacaracaq".

Ə.İbrahimov əlavə edib ki, atəşkəs əldə edildikdən sonra həm Rusiyanın, həm də Ukraynanın irəli şərtləri danışıqlar masasına çıxarılacaq: "Məhz buna görə də atəşkəs elan olunana qədər Ukraynaya hərbi yardımın davam edəcəyi heç kimdə şübhə doğurmamalıdır".

*Yunis*

# İkinci raund...

## ABŞ-Rusiya görüşü bu dəfə Ciddədə baş tutacaq



Bazar günü Səudiyyə Ərəbistanının Ciddə şəhərində ABŞ ilə Rusiya arasında növbəti görüşün keçirilməsi gözlənilir. ABŞ Prezidentinin xüsusi nümayəndəsi Stiv Vitkoff "Fox News" telekanalına bildirib ki, Ciddədəki görüşdə Amerika tərəfini ABŞ-ın milli təhlükəsizlik üzrə müşaviri Mayk Vals və Dövlət katibi Marko Rubio təmsil edəcək. Xatırladaq ki, fevralın 18-də Ər-Riyad şəhərində ABŞ-Rusiya danışıqlarının ilk raundu keçirilmişdi. Qərb KİV-nin məlumatına görə, bu görüşdə ABŞ-Rusiya münasibətlərinin bərpərar olunması, Ukrayna münaqişəsinin nizamlanması və beynəlxalq münasibətlərdə hazırkı vəziyyətlə bağlı ətraflı fikir mübadiləsi aparılmışdı.

Qeyd edək ki, martın 18-də Donald Tramp ilə Vladimir Putin arasında telefon danışığı baş tutub. Rus KİV-ləri Kremlin rəsmi məlumatlarına əsasən qeyd edirlər ki, hər iki ölkənin rəhbəri söhbət əsnasında bir sıra regional və beynəlxalq məsələləri müzakirə ediblər.

**Hər iki dövlət maraqlıdır...**

Məsələ ilə bağlı politoloq Tural İsmayılov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Ciddədəki ABŞ-Rusiya görüşü mühüm əhəmiyyət daşıya bilər: "Hazırda həm ABŞ, həm də Rusiya Ukrayna məsələsində müəyyən mənada eyni mövqe sərgiləyirlər. Yəni hər iki dövlət müharibənin bitməsində maraqlıdır və hər hansı çərçivə sazişinə bənzər sənədin imzalanmasının tərəfdarıdırlar. Ciddə görüşündə hansı məsələlərin müzakirə olunmasına gəlincə, qeyd edim ki, Tramp ilə Putin arasında baş tutan son telefon danışığında müzakirə predmeti olan məsələlərin və əldə olunan razılaşmaların detalları bu görüşdə ətraflı müzakirə olunacaq. Bununla bağlı mühüm məqamlar var, hətta hər iki dövlət bu istiqamətdə iradə nümayiş etdirir".

**Aİ prosesdən kənarda qalır**

"Maraqlı məqam bundan ibarətdir ki, Avropa İttifaqının aparıcı üzv ölkələri, həmçinin Britaniya Tramp administrasiyasının Ukrayna münaqişəsinə yanaşmasından razı deyillər. Biz görürük ki, Aİ Trampın Ukrayna ilə bağlı mövqeyini şübhə altına alır. Hesab edirəm ki, bunun özü çox ciddi problemlər yaradır. Yəni Ukraynadakı müharibənin bitməsinə əngəl yarana bilər," - deyə T.İsmayılov vurğulayıb.

**Ukraynanın ərazi bütövlüyü arxa plana keçir**

Politoloqun sözlərinə görə, istənilən halda Rusiya ilə Ukrayna arasında atəşkəs sazişi imzalanacaq: "Hazırkı proseslər fonunda əsas məqam budur ki, Ukraynanın ərazi bütövlüyü arxa plana keçir və böyük güclər daha çox bu ölkədə öz geosiyasi və geoiqtisadi maraqlarını təmin etməyə çalışacaqlar. ABŞ tərəfindən Rusiyaya elə bir anlaşma təklif edilib ki, bu, birmənalı şəkildə Ukraynanın milli maraqlarına cavab vermir".

*Y.ABDULLAYEV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




## 20-ci günün duası:

“Allahumməftəh li fihi əbvabəl-cinan. Və əğliq ənni fihi əbvabən-niyran.Və vəffiqni fihi litilavətil-Qur-an. Ya munziləs-səkinəti fi qulubil-mu-minin”.

**Tərcüməsi:**

“İlahi, bu gün mənim üzümə cənnət qapılarını açıb, cəhənnəm qapılarını bağla!Bu gün məni Quran oxumaqda müvəffəq et! Ey möminlərin qəlbinə aramlıq bəxş edən Allah”.

# Bizim planet!

## Ümumdünya Yer Günüdür...

Dünyada baş verən bütün dəyişikliklər insanların rahatlığı üçün yaradılır. Lakin zaman keçdikcə bu dəyişikliklər bəzi problemlərə də yol aça bilir. Məsələn, kimyəvi tullantılar, texniki əşyalar, salınmış şəhərciklər, tikilmiş binalar, infrastrukturlar və daha nələr-nələr... Bütün bunlar tədricən dünyanın nəfəs alan “ağciyərlərinin” məhvinə gətirib çıxarıb. Bu gün qlobal problemə çevrilən iqlim dəyişikliyi, qlobal istiləşmə, suyun tükənməsi və s. kimi ekoloji problemlər dünyadakı bu dəyişmələrin acı nəticəsi hesab edilir.



Yaşamaq üçün vacib olan dünyamızın qorunması isə hər birimizin borcu və məsuliyyətidir. Məhz bu səbəbdən martın 20-si Ümumdünya Yer Günü olaraq qeyd edilir. Bu əlamətdar gün ətraf mühitin qorunmasına yönəlmiş beynəlxalq tədbirdir. Hazırda dünyanın 192 ölkəsində Yer Günü fərqli aksiyalarla yadda qalır - konfranslar, sərgilər, böyük şəhərlərin magistral yollarında nəqliyyatın hərəkətinin məhdudlaşdırılması, abadlıq, təmizlik işlərinin aparılması, ağac əkilməsi.

**Tarixə nəzər...**

Yer Gününün tarixi XX əsrin 70-ci illərinə əsaslanır. Bu gün Birləşmiş Millətlər Təşkilatının (BMT) 50-dən çox üzv dövlətinin müəllifliyi ilə 2009-cu ildə BMT-nin Ümumi Məclisinin 63-cü iclasına əsasən təsis olunub və 2010-cu ildən etibarən qeyd olunmağa başlanıb. İlk zamanlar Yer Günü bir çox ölkədə günlərin bərabərləşməsi, yazın (Şimal yarımkürəsində) və ya payızın (Cənub yarımkürəsində) başladığı zaman qeyd olunurdu.

**“Sülh zəngi”...**

Formalaşmış ənənəyə görə, hər il Yer Günündə ölkələrin böyük əksəriyyətində dinc həyatın, bütün xalqların dostluğunun və həmrəyliyinin simvolu olan “Sülh zəngi” birdəqiqəlik çalınır. Bu, mədəniyyəti və bəşəriyyətin ən yaxşı nailiyyətlərini qorumaq naminə fəaliyyətə çağırışdır. Həmin mərasimin mənası ondan ibarətdir ki, bu dəqiqə ərzində insanlar planeti necə qoruyub saxlamaq, ondakı həyatı necə yaxşılaşdırmaq, özlərini sakin və Yer kürəsinin bir hissəsi kimi hiss etmək barədə düşünürlər.

İlk “Sülh zəngi” 1954-cü ildə BMT-nin qərargahı Nyu-Yorkda quraşdırılmışdı. 1996-cı ildə belə bir sülh zəngi BMT-də, eləcə də Avstriyanın paytaxtı Vyana şəhərində quraşdırıldı. Daha sonra isə Yaponiyada, Almaniyanın böyük şəhərlərində (1989), Polşada, Türkiyədə (1989), Meksikada (1990), Avstraliya (1992), Monqolustan (1993), Filippin (1994), Kanada (1996), Braziliya (1997), Argentina (1998), Ekvador (1999), Özbəkistan (2003) və digər ölkələrdə quraşdırılıb.

**Bu gün gecə və gündüz bərabərləşir**

Yeri gəlmişkən, bu gün Azərbaycana Bakı vaxtı ilə saat 13:01:25-də yaz fəsli daxil olur. Məlumdur ki, yazın gəlişi ilə gecə və gündüz bərabərləşir. Yer öz xəyali oxu ətrafında qərbdən şərqə doğru fırlanır və qlobusun köməyi ilə bu hərəkəti izləmək mümkündür. Yerin oxu Yer kürəsinin mərkəzindən və qütblərdən keçən xəyali xətdir.

Yer kürəsinin öz oxu ətrafında hərəkəti 24 saata başa çatır. Bu dövr sutka adlanır. Yerin işıqlanan tərəfində gündüz olanda əks tərəfdə gecə olur. Onların arasında isə səhər və axşam vaxtları müşahidə edilir. Yerin öz oxu ətrafında fırlanması müxtəlif ölkələrdə vaxt fərqlərinin yaranmasına səbəb olur. Dünyanın müxtəlif ərazilərində günün işıqlı və qaranlıq vaxtının müddəti eyni deyil. Ekvator boyunca il ərzində gündüz və gecənin uzunluqları bərabər olur. Qütblərə yaxın ərazilərdə isə işıqlı vaxtın müddəti yarım ilə qədər uzanır. Digər yarım ilə qədər isə Günəş görünmür.

Astronomlar müəyyən ediblər ki, bəşəriyyətin “evi” olan Yer kürəsi kainatın ucsuz-bucaqsız ənginliyinin bir zərrəsidir. İndiyədək kainatın heç bir yerində həyat aşkar olunmayıb. Ancaq Günəş sisteminin üçüncü planeti olan Yer kürəsində yaşayış üçün əlverişli şərait mövcuddur. Üstəlik, bu gözəl planetdə yaşamaq bizə sevinc gətirir, mövcudluğumuz üçün Yer kürəsi çox vacibdir. Ona görə bu planetimizi qorumaq hər birimizin üzərinə düşən mühüm vəzifələrdən biridir!.

*Yeganə BAYRAMOVA*

# Xoşbəxt olun!

## 20 Mart Beynəlxalq Xoşbəxtlik Günüdür...

Bu gün Beynəlxalq Xoşbəxtlik Günüdür. Bu günün hər il martın 20-də qeyd edilməsi barədə 2012-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən qərar verilib. Məqsəd isə xoşbəxtliyə can atmağın planetimizdəki bütün insanların ortaq hissi olması haqqında ideyanı dəstəkləməkdir. Beynəlxalq Xoşbəxtlik Gününün təsisçilərinin fikrincə, bu bayram xoşbəxtliyin bəşəriyyətin əsas məqsədlərindən biri olduğunu göstərmək və xatırlatmaq üçün təsis olunub. Bununla əlaqədar təsisçilər bütün ölkələri öz səylərini hər bir insanın rifahına yönəltməyə çağırırlar. BMT hər bir üzv dövlətə, beynəlxalq və regional təşkilatlara, həmçinin mülki şəxslər və qeyri-hökumət təşkilatları da daxil olmaqla, vətəndaş cəmiyyətinə Beynəlxalq Xoşbəxtlik Gününü, maarifləndirmə tədbirləri də daxil olmaqla, lazımi qaydada qeyd etməyə çağırır.




## “Xoşbəxtlik resepti”...

Dahi Albert Eynşteyn xoşbəxtliyin “resept”ini yazmışdı. Bu xoşbəxtlik sirri isə sadəcə, bir nəfərə nəsib olub. Onun 1922-ci ildə Tokioya mühazirə oxumağa gedəndə “Nobel” mükafatı aldığı xəbərini gətirən kuryerə bəxşiş verməyə pulu olmur.

Hotelin kitabçasından cırdığı iki vərəqə alman dilində “Dinc və sadə həyat gərgin halda uğur dalınca qaçmaqdan insana daha çox xoşbəxtlik gətirir. Əgər iradə varsa, vasitə də tapılar” - deyə yazır. Həmin kağızı kuryerə verərkən “Ola bilsin, bu qeyd bəxşişdən daha qiymətli olacaq”, - deyə əlavə edir.

Həqiqətən də, belə olur. “Vinners” hərrac evinin verdiyi məlumata görə, alimin əl yazısı 240 min dollara satılır. Bu gün həmin kağız parçası milyon yarımlıq sərvətə bərabərdir. “Xoşbəxtlik resepti” sonuncu dəfə Yerusəlimdə 1,56 milyon dollara satılıb.

## Dünyanın ən xoşbəxt ölkələri

BMT-nin Dayanıqlı İnkişaf Həlləri Şəbəkəsi dünyanın ən xoşbəxt ölkələrini araşdırıb. Şəbəkə qlobal sorğu məlumatlarından istifadə edərək həmin ölkələri müəyyən edib. Hesabata görə, Skandinaviya ölkələri birinci yerdə qərarlaşıb. Həmin ölkələr bunlardır: 1. Finlandiya, 2. Danimarka, 3. İslandiya, 4. İsrail, 5. Niderland, 6. İsveç, 7. Norveç, 8. İsveçrə, 9. Lüksemburq, 10. Yeni Zellandiya, 11. Avstriya, 12. Avstraliya, 13. Kanada, 14. İrlandiya, 15. ABŞ, 16. Almaniya, 17. Belçika, 18. Çexiya Respublikası, 19. Böyük Britaniya, 20. Litva.

## Xoşbəxt olmaq üçün nə etməli?

Əslində, xoşbəxt olmaq elə də çətin deyil. Alimlər insanların xoşbəxt olması üçün bir sıra mühüm məqamlara fikir verməlerini məsləhət görürlər: Kin və nifrətdən xilas olun - bu, həm sizi qocaldır, həm də xoşbəxt olmanıza əngəl yaradır. Ən yaxşısı pozitiv olmaqdır.

Hər kəsə yaxşı davranın - ətrafınızdakı insanlara qarşı pis rəftarınız sizin də əhvalınızı pozacaq. Üstəlik, onların da sizinlə pis olmasına səbəb olacaq. Odur ki, kimisə acılamağa dəyməz. Xoşbəxt olmaq üçün hər kəsə yaxşı davranın!

Şükür etməyi bacarın - Əlinizdəkilərin qədrini bilin. Əldə etdiklərinizə görə naşükürlük etməyin. Hər şeyə görə şükür etməyi öyrənmək elə də çətin deyil.

Hər şeyə əhəmiyyət verməyin, başqaları haqqında yaxşı danışın, bəhanə axtarmayın, hər səhər eyni saatda oyanın, dinləməyi öyrənin, qidaniza fikir verin, idmanla məşğul olun və nəhayət... Xoşbəxt olun!!!

*Yeganə BAYRAMOVA*

## Bakcell” “DaimOnline” ilə tələbələrə 5GB hədiyyə edir!

İnnovasiya və sürət lideri “Bakcell” Təhsilin İnkişafı Fondu (TİF) ilə birgə əməkdaşlığı çərçivəsində tələbələrə “DaimOnline” paketi ilə 5GB internet hədiyyə edir. Belə ki, “TələbəPlus” kartına sahib olan tələbələr bu üstünlükdən faydalana biləcəklər.

Bu əməkdaşlığın əsas məqsədi tələbələrin rəqəmsal imkanlarını genişləndirmək, onların akademik və şəxsi inkişafını dəstəkləmək, eləcə də internetə daha rahat çıxışını təmin etməkdir.

Əməkdaşlıq çərçivəsində “TələbəPlus” kart sahibləri üçün xüsusi güzəştlər və əlavə imkanlar nəzərdə tutulur. “DaimOnline” paketi çərçivəsində tələbələrə hər ay 5GB əlavə internet bonusu təqdim ediləcək. Bu bonus onların təhsil prosesində onlayn resurslardan daha rahat və sərbəst şəkildə faydalanmasına imkan yaradacaq.










Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4892
Sifariş: 624
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova